*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

*Heydər Əliyev.*



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 5-8 (9261-9264) | 15 may 2018-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik



## Qazax rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə obyektlərinin tikintisinin davam etdirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Qazax Rayon Mərkəzi Xəstəxanasının (I növbə) tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.15-ci yarımbəndində göstərilmiş məbləğin 14,6 milyon (on dörd milyon altı yüz min) manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 mart 2018-ci il*

## HESABAT YIĞINCAĞI KEÇİRİLMİŞDİR

**Aprel ayının 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclasındakı nitqindən irəli gələn vəzifələrlə əlaqədar Qazax rayonunda hesabat yığıncağı keçirilmişdir.**



Hesabat yığıncağında RİHB Aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, kənd icra nümayəndələri və bələdiyyə sədrləri, təhsil, səhiyyə, mədəniyyət işçiləri, məktəb direktorları, bağça müdirləri, sahibkarlar, KİV nümayəndələri iştirak etmişdir.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov geniş məruzə ilə çıxış edərək ölkə başçısının cari ilin ilk üç ayı ərzində Azərbaycanda həyata keçirilmiş genişmiqyaslı işlərə, qazanılan uğur və nailiyyətlərə öz münasibətini bildirməsindən, qarşıda duran vəzifələrdən danışmasından söz açmışdır. 2018-ci ilin birinci rübünün rayonumuz üçün də uğurlu olduğunu qeyd edən R.Babaşov aparılan tikinti-quruculuq işlərindən, həyata keçirilən məqsədyönlü tədbirlərdən danışmışdır.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur. Qazax Elekrik Şəbəkəsinin rəisi Elşad Məmmədov, rayon Suvarma Sistemləri İdarəsinin rəisi Abbas Göyüşov, Su-kanal İdarəsinin rəisi Alı Hüseynov, "Birinci Şıxlı kəndli fermer təsərrüfatı" MMC-nin direktor müavini Səfurə Vəliyeva çıxış edərək hesabat dövründə rəhbərlik etdikləri sahələrdə görülən işlərdən və qarşıda duran vəzifələrdən danışmışlar.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq qarşıda duran vəzifələrdən danışmış, tapşırıq və tövsiyələrini vermişdir.

## 2018-ci ildə Qazax rayonunun 11 yaşayış məntəqəsində subartezian quyuları qazılacaqdır

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam imzalamışdır. Ölkə Başçısının 12 mart 2018-ci il tarixli Sərəncamına əsasən Qazax rayonunun 11 yaşayış məntəqəsində subartezian quyularının qazılması nəzərdə tutulmuşdur.

2018-ci ildə rayonun Aşağı Salahlı (1 ədəd), Orta Salahlı (2 ədəd), Çaylı (2 ədəd), Canalı (1 ədəd), Hüseynbəyli (1 ədəd), Kosalar (1 ədəd), Dəmirçilər (1 ədəd), Xanlıqlar (1 ədəd) və Qarapapaq (1 ədəd) kəndlərində subartezian quyuları qazılacaqdır.

## Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü rayonumuzda böyük ehtiramla yad edilmişdir

**10 may müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü günüdür. Artıq 15-ci ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.**

Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü Qazax rayonunda da geniş şəkildə qeyd edilmişdir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə rayonun bütün idarə və müəssisələrində, əmək kollektivlərində, bütün təhsil müəssisələrində silsilə tədbirlər keçirilmiş, xatirəsinə həsr olunmuş idman yarışları və sərgilər təşkil olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov ümummilli lider Heydər Əliyevin ildönümü ilə əlaqədar keçirilən tədbirdə iştirak etmək üçün ulu öndərin adını daşıyan parka gələrək ümummilli liderin abidəsi önünə gül dəstələri qoymuş, əziz xatirəsini böyük ehtiramla yad etmişdir. Tədbir iştirakçıları da ulu öndərin heykəli önünə gül dəstələri qoyaraq ümummilli liderə öz ehtiramlarını bildirmişlər.





Sonra tədbir Heydər Əliyev Mərkəzində davam etdirilmişdir. Ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunmuşdur. Tədbir iştirakçıları kitab və jurnallardan ibarət sərgi ilə tanış olmuş, öz ürək sözlərini bildirmişlər. Qeyd olunmuşdur ki, Azərbaycan xalqı fəxr edə bilər ki, onun tarixi və taleyi dahi şəxsiyyət Heydər Əliyevin adı və ideyaları ilə bağlıdır. Vətənimiz üçün çox mürəkkəb bir dövrdə xalqına arxa olan ulu öndər Heydər Əliyev Azərbaycanın inkişaf tarixində silinməz izlər qoymuşdur. Onun zəhməti nəticəsində Azərbaycan dünyanın siyasi meydanında öz sözünü deyə bilən qüdrətli dövlətə çevrilmişdir.

Bildirilmişdir ki, ulu öndər 3 dəfə - 1971, 1979 və 1998-ci illərdə Qazax rayonunda olmuş, əmək adamları ilə görüşmüş, müşavirələr keçirmişdir. Ümummilli lider Qazax rayonuna, onun zəhmətsevər insanlarına, yazıçı və şairlərinə, elm adamlarına yüksək dəyər vermiş, zaman-zaman onları qiymətləndirmişdir.

Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən ümummilli lider Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Azərbaycanın özü qədər əbədi olan dahi şəxsiyyət hər bir vətəndaşın qəlbində böyük məhəbbətlə anılır, sevilir, yaşanır və əbədi yaşayacaqdır.

Qeyd olunmuşdur ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu inkişaf strategiyası hazırda Respublika Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmişdir.

Tədbirin sonunda Q.Hacımahmudova adına şəhər ümumi orta məktəbin şagirdləri ulu öndərə həsr olunmuş şeirlər söyləmişlər.

## Rayonumuzda 9 May - Böyük Vətən Müharibəsində Qələbənin 73-cü ildönümünə həsr olunmuş tədbir keçirilmişdir

**Rayonumuzda 9 May - Böyük Vətən Müharibəsində Qələbənin 73-cü ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Aparatın məsul işçiləri, Böyük Vətən Müharibəsi veteranları, hüquq-mühafizə orqanlarının rəhbərləri, Şəhid ailələri və Qarabağ Müharibəsi əlilləri İctimai Birliyinin üzvləri, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyətin nümayəndələri iştirak etmişdir.**

Tədbir iştirakçıları Şəhidlər Xiyabanına gəlmişlər. Şəhidlərin ruhuna dua oxunduqdan sonra Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov abidə-kompleksin önünə gül dəstələri qoymuş, şəhidlərin xatirəsini böyük ehtiramla yad etmişdir. Tədbir iştirakçıları da kompleksin önünə gül dəstələri qoyaraq şəhidlərə öz ehtiramlarını bildirmişlər.

Sonra tədbir Daş Salahlı kəndində Böyük Vətən Müharibəsində (1941-1945-ci illər) həlak olanların xatirəsinə tikilmiş abidə-kompleksin önündə davam etdirilmişdir. Burada abidə-kompleksin yenidənqurulması və əsaslı təmirindən sonra açılışı olmuşdur.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov müharibə veteranları ilə birlikdə kompleksin rəmzi açılışını bildirən qırmızı lenti kəsmiş, abidənin önünə gül dəstələri qoyaraq Böyük Vətən Müharibəsində həlak olanların xatirəsini yad etmişlər. Sonra tədbir iştirakçıları tərəfindən abidə önünə qərənfillər qoyulmuşdur.

Azərbaycan Respublikası Müdafiə Nazirinin müşaviri Abdulla Qurbani giriş sözü ilə çıxış edərək tədbirin məqsəd və əhəmiyyətindən danışmışdır.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək bildirmişdir ki, Azərbaycan faşizm üzərində Qələbəyə mühüm töhfələr vermiş, xalqımız cəbhəyə 600 mindən çox oğul və qızını yola salmışdır. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmamışdır. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmişdir. Xalqımız arxa cəbhədə də əsl əzmkarlıq



nümayiş etdirmişdir. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynamışdır.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmiş, onlara hərtərəfli qayğı ilə yanaşmış və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atmışdır. 1994-cü ildən başlayaraq Azərbaycanda 9 May - Qələbə Günü qeyd olunur. Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu il də daxil olmaqla hər il 9 May - Qələbə Günü münasibətilə müharibə veteranlarına, onların dul qalmış həyat yoldaşlarına maddi yardım olunur.

Böyük Vətən Müharibəsi veteranı Xanqulu Süleymanov çıxış edərək tarixi qələbənin əldə edilməsində Azərbaycan oğul və qızlarının göstərdiyi qəhrəmanlıqlardan söz açmışdır.

Daş Salahlı kənd sakini Fərhad Qocamanov, şəhid ailəsi adından Vaqif Məmmədov, kənd ağsaqqalı Nuşirəvan Xəlilov çıxış edərək qələbə günü münasibətilə veteranları təbrik etmişlər. AYB Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi Barat Vüsal təbriklərə qoşularaq müharibəyə həsr etdiyi şeiri oxumuşdur.

Sonra Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Böyük Vətən Müharibəsi veteranlarını Fəxri Fərmanla təltif etmişdir. Qələbə Günü 100 yaşı tamam olan Nəbi Nəbiyevə, Xanqulu Süleymanova və Hümbət Alıyevə Fəxri Fərmanlar və hədiyyələr təqdim olunmuşdur.

## Qazaxlı gənclər hərbi xidmətə yüksək əhval-ruhiyyə ilə yola düşmüşlər



**"Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 mart 2018-ci il tarixli Sərəncamına müvafiq olaraq qazaxlı gənclər yüksək əhval-ruhiyyə ilə hərbi xidmətə yola düşmüşlər.**

Bu münasibətlə keçirilən tədbirdə rayon İcra Hakimiyyəti Başçısı Aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, idarə, müəssisə və təşkilatların rəhbərləri, Qarabağ müharibəsi veteranları, Aprel döyüşlərinin iştirakçıları, çağırışçılar, valideynlər və KİV nümayəndələri iştirak etmişdir.

Tədbirə şəhərdəki Şəhidlər Xiyabanından başlanılmışdır. Şəhidlərin ruhuna dua oxunduqdan sonra Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Vətən yolunda canından keçmiş oğul və qızlarımızın xatirəsini ehtiramla yad edərək abidə önünə gül dəstələri qoymuşdur. Şəhidlərin xatirəsi tədbir iştirakçıları tərəfindən də yad olunmuşdur.

Sonra tədbir Heydər Əliyev parkında davam etmişdir. Rayon rəhbərliyi və tədbirə toplaşanlar ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq ulu öndərin xatirəsini yad etmişlər.





Sonra Gənclər Mərkəzinin qarşısında yığıncaq keçirilmişdir. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək 11 aprel prezident seçkilərinin uğurla başa çatması və İlham Əliyevin yenidən Prezident seçilməsi münasibətilə bütün rayon sakinlərini, xalqımızı təbrik etmişdir. Sonra ordu quruculuğu sahəsində qazanılan uğurlardan danışaraq ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlərin ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olduğunu bildirmişdir. Bunun nəticəsidir ki, 2016-cı ilin aprel ayında ordumuzun hərbi birləşmələri qısa müddət ərzində işğal altında olan ərazilərimizin bir hissəsini düşməndən azad etmişdir. İcra Başçısı gənclərlə qürur duyduğunu bildirərək çağırışçılara Vətənin layiqli əsgəri olmağı tövsiyə etmiş, hərbi xidmətə yola düşən çağırışçı-gənclərə ən xoş arzularını çatdırmışdır.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səslənmişdir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsinin rəisi, polkovnik Rəsul Quliyev çıxış edərək Prezident İlham Əliyevin Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında 6 mart 2018-ci il tarixində Sərəncam imzaladığını bildirmişdir.

Böyük Vətən Müharibəsi veteranı Xanqulu Süleymanov, rayon İcra Hakimiyyəti başçısının müavini, Aprel döyüşlərinin iştirakçısı olmuş əsgər anası Gulaya Həsənova, I qrup Qarabağ müharibəsi əlili Namiq Alıyev Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini və yaxınlarını təbrik etmiş, onların övladlarının ordu sıralarında ləyaqətlə xidmət edəcəklərinə əminliklərini bildirmişlər.

Yuxarı Salahlı kənd tam orta məktəbin şagirdlərinin ifasında Vətənə, Azərbaycan əsgərinə həsr olunmuş şeirlər səslənmişdir.

Sonra gənclər musiqi sədaları altında rəqs etmişlər.

Tədbirin sonunda Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çağırışçı-gənclərlə bir-bir görüşərək onlara uğur arzulamış, xatirə şəkilləri çəkdirmişdir.

**Elçin İSMAYIL**

# 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun

# HESABAT MƏRUZƏSİ

**Bildiyiniz kimi, aprel ayının 11-də Azərbaycan Respublikasında Prezident seçkiləri keçirildi. Respublikanın hər yerində olduğu kimi, Qazax rayonunun əhalisi də seçkiyə böyük ruh yüksəkliyi ilə qoşularaq kütləvi şəkildə iştirak edərək Azərbaycanın parlaq gələcəyi naminə cənab İlham Əliyevə göstərdikləri böyük etimadı nümayiş etdirmişlər. Eyni zamanda bu gün Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyevin andiçmə mərasimi keçirilmişdir. Bu münasibətlə həm cənab Prezidenti, həm Azərbaycan xalqını təbrik edirəm.**

Aprel ayının 9-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclası keçirilmişdir. İclasda ölkə başçısı cari ilin ilk üç ayı ərzində Azərbaycanda həyata keçirilmiş genişmiqyaslı işlərə, qazanılan uğur və nailiyyətlərə öz münasibətini bildirmiş, qarşıda duran vəzifələrdən danışmışdır.

Ölkə başçısı öz çıxışında bu ilin birinci rübündə ölkəmizdə iqtisadi inkişafın təmin olunduğunu, sosial məsələlərin həllini tapdığını, ordu quruculuğunun uğurla getdiyini qeyd edərək 2018-ci ilin bizim üçün uğurlu il olacağını bildirmişdir.

Cənab Prezident 2018-ci ilin birinci rübü ərzində ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirildyini və bu tədbirlər içərsində VI Bakı Qlobal Forumunu xüsusilə qeyd etmişdir. Bu Forumda 50-dən çox ölkədən 47 fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısı iştirak etmişdir. Birinci rübdə ölkəmizə 7 dövlət və hökumət başçısı səfər etmişdir. Bu səfərlər də ölkəmizin dost ölkələrlə ikitərəfli münasibətlərinin inkişafı üçün önəmli rol oynamışdır.

Bu il ölkəmizdə Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransı keçirilmişdir. Qoşulmama Hərəkatı dünyada BMT-dən sonra ikinci böyük təşkilatdır. Biz bu təşkilata 7 il bundan əvvəl üzv olmuşuq, gələn ildən başlayaraq Azərbaycan dünyanın ikinci böyük təşkilatına sədrliyi öz üzərinə götürəcəkdir. Bu, 120 ölkənin Azərbaycana olan böyük hörmətinin, inamının təzahürüdür.

Bu ilin birinci rübündə Azərbaycan iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulubdur ki, bunun böyük əksəriyyəti xarici sərmayədir. Bu isə ölkəmizin xarici investorlar üçün çox cəlbedici olduğunu göstərir. Birinci rübdə Azərbaycan iqtisadiyyatı 2,3 faiz artmışdır. Bu, dünya miqyasında mövcud olan artımdan daha yüksək göstəricidir. Qeyri-neft sektorumuz isə təxminən 3 faiz artmışdır. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə təxminən 10 faiz artmışdır. Bu da ölkəmizdə son illər ərzində aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Qeyri-neft sənayemiz 10 faiz artıb və hesab edirəm ki, bu, rekord göstərici sayıla bilər. Kənd təsərrüfatı 4,2 faiz artıb. Bu artımın tərkibində biz daha çox bitkiçiliyin artımını görürük, bitkiçilik 50 faizdən çox artmışdır. Valyuta ehtiyatlarımız 2,2 milyard dollar artmışdır və hazırda 44,2 milyard dollara bərabərdir.

Ölkə başçısı xarici ticarət dövriyyəsinin 31 faiz, o cümlədən, ümumi ixracın 24 faiz, qeyri-neft ixracının 37 faiz artdığını və bunun uğurlu siyasətin bariz nümunəsi olduğunu bildirmişdir. Birinci rübdə 34 min yeni iş yeri yaradılmışdır ki, onlardan 31 mini daimi iş yeridir, 2004-cü ildən bu günə qədər Azərbaycanda təxminən 1 milyon 500 min yeni daimi iş yeri yaradılmışdır.

Cənab Prezident Cənub Qaz Dəhlizinin reallaşmasına az vaxt qaldığını, bu il bu layihənin 3 önəmli hissəsinin - TANAP, Cənubi Qafqaz Kəməri və "Şahdəniz-2" başa çatacağını vurğulamışdır. Ölkəmiz dünyada daha çox tanınır və turistlərin sayı getdikcə artır, birinci rübdə turistlərin sayı 12,5 faiz artmışdır. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər Azərbaycanı dünyaya təqdim edir.

2018-ci ilin birinci rübü rayonumuz üçün uğurlu olmuşdur.

Qazax rayonu üzrə 2018-ci ilin yerli gəlir və xərclərinin proqnozu 9.363.000 manat məbləğində müəyyənləşdirilmişdir.

2018-ci ilin birinci rübündə yerli daxilolmalar 1.824.849 manat proqnoza qarşı 2.045.427 manat və ya 112,09 faiz yerinə yetirilərək büdcəyə 220.578 manat artıq vəsait mədaxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə büdcəyə 279.499 manat və ya 15,83 faiz çox vəsait daxil olmuşdur.

2018-ci ilin birinci rübündə qarşılıqlı hesablaşmalar əsasında 222.861 manat vəsait daxil olmuş və 204.731 manat vəsait öz təyinatı üzrə xərc edilmişdir.

Yekun olaraq 2018-ci ilin birinci rübündə



yerli gəlirlər cəmi 2.047.710 manat proqnoza qarşı 2.268.288 manat, yəni 110,77 faiz yerinə yetirilmişdir.

2018-ci ilin 3 ayında yerli xərclər 2.025.236 manat proqnoza qarşı 1.919.979 manat, yəni 94,8 faiz icra olunmuşdur.

Rayon ərazisində 5 özəl bank filialı, 1 özəl bank şöbəsi, 1 kredit ittifaqı və 3 bank olmayan kredit təşkilatı fəaliyyət göstərir. 2018-ci ilin 3 ayı ərzində əhaliyə 5.111.570 manat kredit verilmiş, əhalidən 1.379.650 manat və 1.106.334 ABŞ dolları əmanət cəlb olunmuşdur. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 layihə üzrə 1.576.000 manat (162 iş yeri) kredit verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə əmək pensiyaları, sosial müavinətlər və dövlət büdcəsindən maliyyələşən idarə və müəssisələrdə çalışan işçilərin əmək haqları artırılmışdır. Bu isə 2018-ci ildə rayonumuz üzrə əmək pensiyaları və sosial müavinətlərdə 2.841.600 manat, əmək haqlarında isə 1.489.000 manat, ümumilikdə 4.330.600 manat artım deməkdir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Qazax rayon şöbəsi tərəfindən əhalinin pensiya və sosial müavinətlərinin ödənilməsi üçün 2018-ci ilin 3 ayında 9.954.200 manat vəsait köçürülmüşdür. Şöbədə 2018-ci ilin 3 ayında sosial sığorta haqları üzrə yığım proqnozu 99,3 faiz yerinə yetirilmişdir. Belə ki, 736.600 manat proqnoza qarşı 726.000 manat vəsait toplanmışdır. O cümlədən, bu göstərici büdcə təşkilatları üzrə 419.900 manat proqnoza qarşı 467.000 manat toplanmaqla 111 faiz, qeyri-büdcə təşkilatları üzrə 313.700 manata qarşı 262.000 manat olmaqla 83,3 faiz, o cümlədən, hüquqi şəxslər 181.400 manata qarşı 178.000 manat olmaqla 98 faiz, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə isə 126.300 manata qarşı 84.400 manat toplanmaqla 66,8 faiz yerinə yetirilmişdir.

2018-ci ilin birinci rübündə şöbədə qeydiyyatda 13537 nəfər pensiyaçı olmuşdur. Onlardan 9.344 nəfəri yaşa görə, 3.374 nəfəri əlilliyə görə və 819 nəfəri ailə başçısını itirməyə görə pensiya alanlardır. Bundan başqa 682 ailənin 2.973 üzvünə rüb ərzində 315.600 manat ünvanlı sosial yardım, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə iştirak etmiş 2.392 nəfər müharibə veteranına 378.800 manat müavinət, 3.861 nəfərə 1.090.100 manat sosial müavinət ödənilmişdir.

Hesabat dövrü ərzində əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təmin olunması sahəsində də müəyyən işlər görülmüşdür.

2018-ci ilin birinci rübündə Qazax Elektrik Şəbəkəsi tərəfindən 35/10/6 kv-luq Daş Salahlı və Şıxlı yarımstansiyalarında, eləcə də, 35/10 kv-luq yarımstansiyalarda olan avadanlıqlarda cari təmir işləri aparılmışdır. 35 kv-luq hava xəttində 0,4 km uzunluğunda cari təmir işləri aparılmış, 7 ədəd izalyator dəyişdirilmişdir. 10 kv-luq hava xəttində 17,85 km uzunluğunda cari təmir işləri, 1,7 km uzunluğunda tarımlama işləri aparılmış, 1,45 km məsafədə ağaclar budanmış, 12 ədəd əyri dayaq düzəldilmiş, 133 ədəd izalyator dəyişdirilmiş, 17 ədəd ağac dayaq beton dayaqla əvəz edilmiş, 0,5 km uzunluğunda zədəli naqillər yenisi ilə əvəz olunmuşdur. 0,4 kv-luq hava xəttində 11,6 km uzunluğunda cari təmir işləri aparılmış, 21 ədəd ağac dayaq beton dayaqla əvəz edilmiş, 2,15 km uzunluğunda tarımlama işləri aparılmış, 97 ədəd sınıq izalyatorlar dəyişdirilmiş, 3 km məsafədə ağaclar budanmış, 1,2 km uzunluğunda zədəli naqil yenisi ilə əvəz edilmişdir. Qazax şəhəri, Kosalar və Çaylı kəndlərində SİP kabelin çəkilməsi üçün 95 ədəd metal dayaq, 12 ədəd beton dayaq quraşdırılmış və 1,4 km uzunluğunda SİP kabel çəkilmişdir. 2018-ci ildə Qazax şəhərində yerləşən hərbi şəhərcik-2, M.Rəsulzadə, Ə.Seyidov, Ə.Süleymanov və Bakı küçələrində, eləcə də, Qarapapaq kəndində hazırda fəaliyyət göstərən açıq naqillərlə çəkilmiş 0,4 kv-luq xətlərin 20 km uzunluğunda SİP kabellə çəkilməsi nəzərdə tutulmuşdur.

2018-ci ilin birinci rübü ərzində Elektrik Şəbəkəsinə 27.071.200 kvts enerji ötürülülmüşdür. Orta hesabla 10,1 faiz itki-2.734.200 kvt saat çıxıldıqdan sonra 24.337.000 kvt saat faydalı enerji qalmışdır, bunun da dəyəri 1.947.600 manatdır. Şəbəkə üzrə cəmi pul yığımı 1.610.300 manat olmuşdur. Ümumi yığım 82,7 faiz təşkil etmişdir. Yığım faizinin aşağı olmasının səbəbləri qeyri balansın yaranması (Ağstafa rayonundakı yarımstansiyadan çıxan elektrik enerjisi ilə Qazax yarımstansiyasına daxil olan enerji arasında olan fərq), Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi və Dövlət Qaçqınkom tərəfindən ödənişlərin aparılmamasıdır. Buna görə də, 337.300 manat debitor borc yaranmışdır. Pul yığımı yerli əhali sektorunda 781.500 manat olmuşdur. 2017-ci illə müqayisədə ümumi yığım 6,9 faiz və ya 227.100 manat artıq, əhali sektorunda isə 70.700 manat çox icra olunmuşdur.

Bildiyiniz kimi, Qazax rayonunun bütün yaşayış məntəqələri təbii qazla təmin olunmuşdur. Şəmkir RQİİ-nin Qazax Xidmət Sahəsi tərəfindən 3 ayda istehlakçılara 28.428.667 m3 təbii qaz satılmışdır. Əhali abonentlərə satılmış qazın dəyəri 1.324.015 manat, yığım isə 1.383.895 manat olmaqla 104,5 faiz yerinə yetirilmişdir. 2017-ci illə müqayisədə 2018-ci ildə əhali abonentlərindən qazın satışına görə yığım 10 faiz çox olmuşdur. Ötən dövr ərzində 70 nəfər yeni abonent təbii qazla təmin olunmuşdur. 29 ədəd məişət qaz sayğacları yeni qaz sayğacları ilə əvəz olunmuşdur. "Təmiz Qaz" MMC tərəfindən aşkar olunmuş müxtəlif diametrli qaz xətlərində 1.692 ədəd sızma aradan qaldırılmışdır.

Qazax Telekommunikasiya Qovşağı tərəfindən 2018-ci ilin birinci rübün yekununa görə 361.120 manat tarif gəliri proqnozuna qarşı 378.700 manat gəlir əldə edilərək proqnoz tapşırığa 105 faiz əməl olunmuşdur. Gəlirin 196.400 manatı internet xidmətindən, 149.920 manatı abunə xidmətindən, 31.042 manatı şəhərlərarası və beynəlxalq danışıqlardan, 1.140 manatı telefon çəkilişindən, 298 manatı isə digər xidmətlərdən daxil olmuşdur. Rüb ərzində 31 ədəd yeni telefon çəkilmiş, 4 ədəd telefon şəbəkəyə bərpa olunmuş, "Aztelekom" internet provayder üzrə 420 ədəd artım olmuş, ümumi istifadəçi sayı 6.119-a çatmışdır. Hesabat dövründə rayon üzrə cəmi telefonların sayı 14.861, hər 100 təsərrüfata düşən abonentlərin sayı 67, internet istifadəçilərinin sayı isə 8.923 nəfər olmuşdur.

Hesabat dövründə Qazax Poçt filialı tərəfindən rüb ərzində 605.752 manat enerji pulu, 1.016.801 manat qaz pulu, 66.018 manat su pulu, həmçinin 21.685 manat vergi pulu, 20.234 manat DSMF pulu, 31.985 manat DİN-nin ödəniş haqları, 1.315 manat dekoder pulu yığılaraq aidiyyəti təşkilatların bank hesablarına köçürülmüş, plan tapşırıqları 110 faiz yerinə yetirilmişdir. Filial tərəfindən 354 ədəd bağlama qəbul edilmiş və 112 ədəd bağlama müxtəlif ünvanlara göndərilmişdir. Həmçinin 2.208 məktub göndərilmiş, 4.352 ədəd məktub qəbul edilmişdir.

"Qazax-Avtovağzal" ASC 2018-ci ilin birinci rübündə plana 102 faiz əməl edərək 107.000 nəfər sərnişinə xidmət göstərmişdir. ASC-də 11 nəfər əmək fəaliyyəti ilə məşğul olur. Gün ərzində şəhər ətrafı, yəni kəndlərə işləyən marşrut üzrə 80 maşın, şəhərlərarası marşrut üzrə isə 57 maşın fəaliyyət göstərməklə, cəmi 137 maşın işləyir.

Qazax "Su Kanal" İdarəsi tərəfindən 2018-ci ilin 3 ayı ərzində 6.161 əhali abonentə xidmət göstərilmiş, içməli su və çirkab suların dəyəri 117.744 manat olmuş, 100.010 manat vəsait toplanmışdır. Bu isə satışın 85 faizini təşkil edir. "Su Kanal" İdarəsi ümumilikdə 104,26 km su, 36,34 km uzunluğunda kanalizasiya xəttinə xidmət edir. 2018-ci ilin 3 ayı ərzində təşkilat tərəfindən 3 ədəd su mühərriki, 4 ədəd su mühərrikinin nasos hissəsi əsaslı təmir olunmuşdur. H.Əliyev prospekti 61, 63, Azadlıq küçəsi 31, 33 saylı binaların su təchizatının yaxşılaşdırılması və dayanıqlığının artırılması üçün 1 ədəd 7,5 kvt və 1 ədəd 15 kvt-lıq elektrik mühərriki nasosla birgə quraşdırılaraq istismara verilmişdir. Azərbaycan Respublikası Prezidentinin "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 17 mart 2017-ci il tarixli 2754 saylı Sərəncamı ilə rayonun Kəmərli kəndində içməli su xətti çəkilərək istifadəyə verilmişdir. Əlavə olaraq Qaymaqlı kəndində də su çəkilişinə başlanılmışdır. 1 ədəd artezian quyusunun qazıntısı, 2 ədəd 50 tonluq çənin qoyulması və diametri 110 mm olan 1.344 metr boru vasitəsilə su çəkilişi nəzərdə tutulmuşdur.

Vətəndaşların rayon İcra Hakimiyyətinə müraciətləri əsasında Ağköynək kəndi ərazisində yaşayan Qazax şəhər sakinlərinə mövcüd olan subartezian quyusundan 3 ədəd siyirtmə quraşdırılaraq 36 abonentə polietilen borular vasitəsilə 580 metr uzunluğunda su xətti çəkilərək istifadəyə verilmişdir. Bundan başqa Qazax şəhəri Osman Sarıvəlli küçəsində 100 mm-lik dəmir boru vasitəsilə uzunluğu 250 metr olan su xətti və Ürkməzli kəndində 1500 metr uzunluğunda içməli su xətti çəkilmişdir. Qazax şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması üçün sənədləşmə işləri başa çatmışdır, yaxın vaxtlarda işlərə başlanılacaqdır.

2018-ci ilin 3 ayında Qazax Kommunal Müəssisələri Kombinatı üzrə 192.780 manat vəsait daxil olmuşdur. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 68.967 manat çoxdur. Kombinat tərəfindən göstərilən xidmətlərə görə əhalidən 6.724 manat, kommersiya müəssisələrindən 5.310 manat, təşkilat və idarələrdən 8.598 manat olmaqla, 20.632 manat vəsait yığılmışdır. 2017-ci ilin müvafiq dövründə əhalidən 3.866 manat, kommersiya müəssisələrindən 4.734 manat, təşkilat və idarələrdən 8.678 manat olmaqla, 17.278 manat vəsait yığılmışdır. Ümumi yığım keçən illə müqayisədə 19,4 faiz çox olmuşdur. Kombinatda 83 nəfər işçi işləyir. Rüb ərzində təşkilat tərəfindən 33.911 manat əmək haqqına, 28.445 DSMF-yə və 29.224 manat əlavə dəyər vergisi olmaqla, cəmi 91.580 manat vəsait ödənilmişdir. Ölkə Prezidentinin tapşırığı əsasında işsizliyin aradan qaldırılması məqsədilə 2018-ci ilin yanvar ayından Kommunal Müəssisələri Kombinatının abadlıq və təmizlik sahələrində 240 nəfər işlə təmin olunmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 8 yanvar tarixli 7s nömrəli Sərəncamı ilə ayrılmış 60 ədəd konteyner rayona gətirilərək yaşayış məntəqələrinin ehtiyac olan yerlərinə qoyulmuşdur. Şəhərdə təmizliyin qorunub saxlanması məqsədilə növbətçilik təşkil olunmuşdur. Növbətçilik əsasında şəhərin hər bir sahəsində səhər saatlarından başlayaraq gecə saat 24:00-dək təmizliyin qorunub saxlanması diqqət mərkəzində olur. Zibil poliqonunda həftədə bir dəfə traktorla təmizlik işləri aparılır.

Qazax Mənzil İstismar Sahəsi tərəfindən ötən 3 ay ərzində 17 binanın dam örtüyündə cari təmir işləri aparılmış, 10 binanın kanalizasiya xətlərində yaranmış qüsurlar boruların qismən dəyişdirilməsi ilə aradan qaldırılmışdır. Rüb ərzində sakinlərdən 2267,70 manat mənzil haqqı yığılmışdır.

Qeyd etmək istərdim ki, Qazax şəhərində 85 ədəd çoxmənzilli yaşayış binalarında təmir işlərinin aparılması nəzərdə tutulmuşdur. Bu binalardan 74-nün dam örtüyünün dəyişdirilməsinə ehtiyac vardır. Hazırda 15 ədəd çoxmənzilli yaşayış binasında təmir işlərinə başlanılmış və işlər davam edir. Bu işlərlə əlaqədar 50 nəfər ictimai işlə təmin olunmuşdur.

2018-ci ilin 3 ayı ərzində rayonun təhsil, mədəniyyət və səhiyyə müəssisələri tərəfindən də bir sıra işlər görülmüşdür.

Rayon Təhsil şöbəsinin tabeliyində olan 34 tam orta, o cümlədən, 1 məktəb-lisey, 6 ümumi orta, 6 ibtidai məktəb və 2 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Cari dərs ilində ümumtəhsil məktəblərində təhsil alan 11.786 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1.714 nəfər müəllim məşğul olur.

2018-ci ilin yanvar ayında keçirilən fənn olimpiadalarının rayon turunda 374 nəfər şagird iştirak etmişdir. Onlardan 49 nəfəri aprel ayında Şəmkir şəhərində keçiriləcək zona mərhələsinə vəsiqə qazanmışlar. Zona mərhələsində yüksək yer tutmuş şagirdlər Bakı şəhərində keçiriləcək respublika turunda iştirak edəcəklər. (4 nəfər şagird respublika turunda iştirak etmək üçün vəsiqə qazanmışdır)

"Fövqəladə Hallar uşaqların gözü ilə" müsabiqəsinin respublika mərhələsində Qazax şəhər 5 saylı tam orta məktəbin şagirdi Nurlan Bayramov, Qazax şəhər 4 saylı tam orta məktəbin şagirdi Nuray Məmmədova və Xanbağı kənd tam orta məktəbin şagirdi Samirə Qapıçıyeva "Model Nominasiyası"nda üçüncü yerə çıxmışlar. Onlar Təhsil Nazirliyi və Fövqəladə Hallar Nazirliyinin Diplomu və qiymətli hədiyyələri ilə mükafatlandırılmışlar.

"Ədəbiyyat Biliciləri" müsabiqəsinin rayon mərhələsi keçirilmiş, Kommuna kənd tam orta məktəbin IX sinif şagirdi Günay Quliyeva rayon müsabiqəsinin qalibi olmuş və respublika mərhələsinə vəsiqə qazanmışdır.

2018-ci ilin 3 ayı ərzində rayon Təhsil şöbəsinin müvafiq əmri ilə yaradılmış işçi qrupunun üzvləri tərəfindən rayonun şəhər 4 saylı, Ağköynək, Xanbağı, Kəmərli, Qaymaqlı, İkinci Şıxlı, Sarıvəlli kənd ümumtəhsil məktəblərində ayrı-ayrı fənlər üzrə monitorinqlər aparılmışdır. Nəticələr yekunlaşaraq Təhsil şurasında müzakirə olunacaq və nümunəvi müəllimlərə təşəkkür, zəif nəticə göstərən müəllimlərə isə məktəb direktorları tərəfindən inzibati tənbeh tədbirləri görüləcəkdir.

Rüb ərzində ümumtəhsil məktəblərində orta aylıq davamiyyət 94,6 faiz olmuşdur.

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə görə, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Ağköynək kənd tam orta məktəbin direktoru Rəhimova Səfurə Firudin qızı Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir. Bir daha təbrik edirik.

2018-ci ilin mart ayında məktəblilərinin yaz tətilində "Ölkəmizi tanıyaq" tur-aksiyasında rayonun IX-XI sinif şagirdlərindən 40 nəfəri Qəbələ-Şəki-Zaqatala bölgəsində ekskursiyada olmuşdur.

Rayonda 25 körpələr evi-uşaq bağçası fəaliyyət göstərir ki, bunlardan 6-sı şəhərdə, 19-u isə kəndlərdə yerləşir. Bağçalar "Ərzaq Məhsullarının Təchizatı və Təminatı" ASC tərəfindən ayda iki dəfə vaxtlı-vaxtında ərzaqla təmin olunurlar və buna rayon İcra Hakimiyyəti tərəfindən daim nəzarət olunur.

2018-ci ilin əvvəllərində rayonda olan körpələr evi-uşaq bağçalarının maddi-texniki bazasının yaxşılaşdırılması sahəsində bir sıra işlər görülmüşdür. Belə ki, Qazax şəhərində fəaliyyət göstərən bütün uşaq bağçaları yeni bərk və yumşaq inventarlarla, elektrik cihazları və digər avadanlıqlar ilə təmin olunmuşlar.

Əhalinin çoxsaylı müraciətlərini nəzərə alaraq 2018-ci ilin yanvar ayında şəhər 1 saylı uşaq bağçasında 3, 5 saylı körpələr evi-uşaq bağçasında 2, 6 saylı körpələr evi-uşaq bağçasında 1 əlavə qruplar açılmışdır. Bu qruplara ümumilikdə 30 nəfər yeni işçi götürülmüş və 100 nəfər uşaq cəlb edilmişdir. Yaranan vakant iş yerlərinə qəbul zamanı isə şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, məcburi köçkünlərə və digər imtiyazlı vətəndaşlara üstünlük verilir.

*(Davamı səh.3-də)*

# 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun

# HESABAT MƏRUZƏSİ

*(Əvvəli səh.2-də)*

Yeni götürülmüş işçilərdən 3 nəfəri şəhid ailəsi, 3 nəfəri məcburi köçkün, 1 nəfəri Qarabağ müharibəsi əlili ailəsi, digərləri isə işə ehtiyacı olan aztəminatlı ailələrdən seçilmişdir. 2018-ci ildə rayonda fəaliyyət göstərən bütün körpələr evi-uşaq bağçalarına diqqətin artırılması, 13 bağça binasında bərpa-gücləndirmə və əsaslı təmir işlərinin aparılması və Çaylı kəndində 60 yerlik uşaq bağçasının açılması nəzərdə tutulmuşdur. Artıq şəhər 2 saylı uşaq bağçasının əsaslı təmirinə başlanılmışdır.

Rayon İcra Hakimiyyəti tərəfindən bağçalarda əmək intizamına daim nəzarət olunur, mütəmadi olaraq reydlər keçirilir. Bağçalarda yaranan problemlər, nöqsanlar və çatışmazlıqlar aşkarlanaraq vaxtında aradan qaldırılır. Fevral ayının 27-si İkinci Şıxlı kənd 1 saylı körpələr evi-uşaq bağçasının müdiri Rəsulova Sədaqət Paşa qızı və tərbiyəçi Məmmədova Turan Novruz qızı işlərində yol verdikləri nöqsanlara və nizam-intizam qaydalarını pozduqlarına görə tutduqları vəzifədən azad edilmişlər. Həmin bağçada 11 il musiqi müəllimi işləmiş ali təhsilli Nərgiz Qurbanəliyeva müdir vəzifəsinə təyin olunmuşdur. 29 il bağçada xadimə işləyən, şəhid İsrayıl Əfəndiyevin həyat yoldaşı Məhəbbət İsmayılova isə iş stajı və orta ixtisas tibbi təhsili nəzərə alınaraq körpə qrupda tərbiyəçi vəzifəsinə keçirilmişdir. Bağçada xadimə vazifəsinə isə şəhidin gəlini Gülbəniz Məmmədova təyin olunmuşdur.

15 mart 2018-ci il tarixdə bütün bağçalarda gecə gözətçilərinin əmək intizamı yoxlanılmış və 7 gözətçi barəsində müvafiq intizam tədbirləri görülmüşdür.

Ağstafa Regional Mədəniyyət və Turizm İdarəsinin Qazax rayon üzrə nümayəndəliyi tərəfindən 2018-ci ilin 3 ayı ərzində rayonda Yeni il şənliyi, 2 Fevral - Gənclər Günü, 8 Mart - Qadınlar bayramı, Novruz bayramı, 20 Yanvar faciəsi, 26 Fevral Xocalı faciəsi, 31 Mart - Azərbaycanlıların Soyqırım Günü ilə bağlı kütləvi tədbirlər geniş və əhatəli keçirilmişdir.

Yanvar ayının 27-də Mədəniyyət Mərkəzinin böyük zalında Əməkdar İncəsənət Xadimi, Prezident Təqaüdçüsü Aşıq Ədalət Nəsibovun doğum günü ilə əlaqədar ədəbi-bədii tədbir keçirilmişdir.

Qazax Tarix-Diyarşunaslıq Muzeyinə və Dövlət Rəsm Qalereyasına məktəblilərin ekskursiyaları təşkil olunmuşdur. Ekskursiyalarda 5000 nəfərdən çox şagird iştirak etmişdir.

Ümumilikdə rüb ərzində bütün mədəniyyət müəssisələri üzrə 465 mədəni-kütləvi tədbir keçirilmişdir.

3 ay ərzində Olimpia İdman Kompleksinin və Göyəzən İdman Sağlamlıq Mərkəzinin otellərinə 1.157 nəfər turist gəlmişdir ki, onlardan 155 nəfəri xarici vətəndaşlar olmuşdur.

Qazax rayon Mərkəzi Xəstəxanasının nəzdində 135 çarpayılıq şəhər xəstəxanası, 30 çarpayılıq Uşaq xəstəxanası, 30 çarpayılıq Doğum evi, 1 Təcili Yardım stansiyası, 3 Poliklinika, 100 çarpayılıq Ruhi xəstəxana, 2 kənd xəstəxanası, 16 kənd həkim məntəqəsi və 17 kənd tibb məntəqəsi fəaliyyət göstərir. Bundan əlavə rayonumuzda respublika tabeçiliyində olan Müalicə Diaqnostika Mərkəzi və 113 xidməti fəaliyyət göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 374s saylı sərəncamına uyğun olaraq köhnə Mərkəzi rayon Xəstəxanasının yerində yeni 145 çarpayılıq Mərkəzi rayon Xəstəxana Kompleksinin tikintisi sürətlə davam etdirilir. Artıq Xəstəxananın əsas binasının tikintisi yekunlaşmaq üzrədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 mart 2018-ci il tarixdə Qazax rayon Mərkəzi Xəstəxanasının (I növbə) tikintisinin başa çatdırılması məqsədilə "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.15-ci yarımbəndində göstərilmiş məbləğin 14,6 milyon (on dörd milyon altı yüz min) manatının Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılması barədə Sərəncam imzalamışdır.

Rayon Mərkəzi Xəstəxanasında 2.939 nəfər şəkərli diabet xəstəsi, 250 nəfər vərəmli xəstə, 737 nəfər onkoloji xəstə dispanser qeydiyyatdadır. Hesabat dövründə rayonun səhiyyə müəssisələrinə ambulator gəlişlərin sayı 13.242 nəfər olmuş, 113 cərrahiyyə əməliyyatı aparılmış, 2.300 nəfər laborator müayinədən keçirilmişdir.

Fevral ayının 12-dən etibarən Dövlət Başçısı İlham Əliyev cənablarının tapşırığına əsasən ölkəmizdə əhalinin tibbi müayinədən keçirilməsi aksiyası Qazax rayonunda da uğurla davam etdirilir. Aprel ayınadək 51.316 nəfər əhali tibbi müayinədən keçirilmiş, 47.055 nəfər sağlam hesab edilmiş, 3.910 nəfər amblator müalicəyə, 245 nəfər stasionar müalicəyə, 107 nəfər isə Bakı şəhərində əlavə müayinə və müalicəyə göndərilmişdir. Müayinələr may ayının 10-a kimi davam etdiriləcəkdir.

Vərəmli, şəkərli diabet, onkoloji xəstələrin aşkarlanaraq müalicəyə cəlb edilməsi gücləndirilmiş, həmin xəstələr müntəzəm olaraq pulsuz dərman preparatları ilə təmin edilirlər.

İlin əvvəlindən səhiyyənin maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə bir sıra şəhər və kənd tibb müəssisələrində əsaslı və cari təmir işlərinə başlamaq üçün tender sənədləri hazırlanmışdır. 2017-ci ildə əsaslı təmirinə başlanılmış Ruhi Xəstəxanada bu il də əsaslı təmirin başa çatdırılması nəzərdə tutulmuşdur. Həmçinin, Yuxarı Salahlı kəndində Yaponiya səfərliyinin xətti ilə yeni həkim məntəqəsinin tikintisi nəzərdə tutulmuşdur. Bu məqsədlə torpaq sahəsi ayrılmış, yaxın vaxtlarda tikinti işlərinə başlanılacaqdır.

Qazax Müalicə Diaqnostika Mərkəzinə 3 ay ərzində 7.725 ambulator gəliş olmuş, mərkəzdə 24.040 laboratoriya müayinələri olunmuş, 249 cərrahi əməliyyat aparılmış və hemodializ şöbəsinə 5 nəfər xəstə daxil olmuşdur. Rüb ərzində hemodializ şöbəsində 68 nəfər xəstə olmuş, xəstələr üzərində 2.215 hemodializ seans aparılmışdır.

Qazax şəhər stadionunda təmir işləri aparılmışdır.

Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2018-ci ilin 3 ayında gənclərlə iş sahəsi üzrə 12, bədən tərbiyəsi və idman sahəsi üzrə 8 tədbir keçirilmişdir. Keçirilən tədbirlərdə gənclərin bütün təbəqələri təmsil olunmaqla 2.669 nəfər yeniyetmə, gənc və idmançılar iştirak etmişdir. Gənclərlə iş sahəsi üzrə aşağıdakı tədbirlər keçirilmişdir:

Qazax rayon İcra Hakimiyyətinin dəstəyi ilə yanvar ayının 17-də Qazax rayon Gənclər Mərkəzində 20 Yanvar faciəsinin 28-ci il dönümünə həsr olunmuş konfrans, yanvarın 18-də Qazax Dövlət Rəsm Qalereyasında "Şəhidlər unudulmur" başlığı altında rəsm müsabiqəsi, Qazax Dövlət Sosial-İqtisadi Kollecinin "İdeoloji Mərkəz" zalında anım tədbiri keçirilmişdir. Fevral ayının 1-də Qazax rayon İcra Hakimiyyətinin dəstəyi və Qazax rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 2 Fevral - Gənclər Günü münasibətilə təntənəli bayram tədbiri keçirilmiş, gənclər siyasətinin həyata keçirilməsində fəal iştirak edən 30 nəfər gənc diplom və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır. Qazax rayon Gənclər və İdman İdarəsi tərəfindən rayon Təhsil şöbəsi ilə birgə rayonun bütün orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin iştirakı ilə "Xocalıya ədalət" başlığı altında inşa-yazı müsabiqəsi keçirilmiş, fevral ayının 26-da Qazax rayon İcra Hakimiyyətinin dəstəyi və gənc rəssam Akif Əmirovun təşəbbüsü ilə Xocalı faciəsinin 26-cı ildönümünə həsr olunmuş "Şəhid şəhər" başlığı altında bədii kompozisiya nümayiş etdirilmiş, tədbirdə ümumilikdə 250 nəfər iştirak etmişdir. 11 aprel Azərbaycan Respublikasının Prezident seçkiləri ərəfəsində ilk dəfə səs verəcək gənclərlə maarifləndirici görüşlər keçirilmişdir. 5 Mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə bayram tədbiri, 28-29 mart tarixdə "Şahin" Hərbi İdman Oyunlarının rayon birinciliyi keçirilmiş, Aşağı Salahlı kənd tam orta məktəbin komandası birinci yerə layiq görülmüşdür.

Bədən tərbiyəsi və idman sahəsi üzrə aşağıdakı tədbirlər keçirilmişdir:

12-14 yanvar tarixlərində Bakı şəhərində karate idman növü üzrə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş beynəlxalq turnir, 14-19 yanvar tarixlərində Bakı şəhərində boks üzrə Azərbaycan birinciliyi, 16-17 yanvar tarixlərində Bakı şəhərində 20 Yanvar şəhidi M.İsayevin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə beynəlxalq turnir keçirilmiş və rayonumuzun idmançısı Əlizadə Sənan Azər oğlu (110 kq) birinci yeri tutmuşdur.

28-30 yanvar tarixlərdə Bakı şəhərində keçirilmiş 2002-2004-cü il təvəllüdlü oğlanlar arasında həndbol üzrə açıq Bakı şəhər birinciliyi keçirilmiş və rayonumuzun komandası 3-cü yeri tutmuşdur.

2 fevral tarixində Gəncə şəhərində yeniyetmələr arasınada sərbəst güləş üzrə zona birinciliyi, 3 fevral tarixində Gəncə şəhərində yeniyetmələr arasınada Yunan-Roma güləşi üzrə zona birinciliyi keçirilmişdir.

14-18 fevral tarixlərində Bakı şəhərində Kikboksinq üzrə kadetlər arasında ölkə birinciliyi, 20-21 fevral tarixlərində sərbəst güləş üzrə ölkə birinciliyi keçirilmiş, Əlizadə Sənan Ayaz oğlu (92 kq) birinci yerə layiq görülmüşdür. 22-23 fevral tarixlərində keçirilmiş sərbəst güləş üzrə ölkə birinciliyində Vəlizadə İntiqam Adil oğlu birinci yerə layiq görülmüşdür.

6 fevral-4 mart tarixlərində Bakı şəhərində boks üzrə yeniyetmələr arasında ölkə birinciliyi, 3-4 mart tarixlərində Samux rayonunda Ağır atletika üzrə respublika yarışlarının birinci seçmə mərhələsi keçirilmişdir.

16-21 mart tarixlərdə Şəmkir rayonunda keçirilmiş 2004-2005-ci il təvəllüdlü oğlanlar arasında həndbol üzrə yarışlarda rayonumuzun komandası birinci yeri tutmuşdur.

Hesabat dövründə beynəlxalq yarışlarda 8, respublika yarışlarında 46 nəfər idmançımız mükafata layiq yerlər tutmuşdur.

28-30 yanvar tarixlərdə Bakı şəhərində keçirilmiş 2002-2004-cü il təvəllüdlü oğlanlar arasında həndbol üzrə açıq Bakı şəhər birinciliyində 3-cü yeri tutmuş rayon komandasının 12 nəfər üzvü və məşqçi-müəllim rayon İcra Hakimiyyəti başçısı tərəfindən qəbul olunmuş, həmçinin 5 Mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə 9 nəfər veteran idmançı və məşqçi-müəllim rayon İcra Hakimiyyəti başçısı tərəfindən qəbul edilərək Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

2018-ci ilin birinci rübündə rayon üzrə əsas kapitala yönəldilən investisiyaların həcmi 6.172.300 manat, ümumi məhsul buraxılışının həcmi 35.200.000 manat olmuşdur ki, bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,6 faiz çoxdur. Sənaye məhsulunun ümumi həcmi 6.500.000 manat keçən ilə nisbətən 17,8 faiz çox, kənd təsərrüfatı məhsullarının həcmi 10.250.000 manat 2017-ci ilə nisbətən 0,6 faiz çox olmuşdur. Adambaşına düşən ümumi məhsulun həcmi 364 manat, orta aylıq əmək haqqı 295,9 manat olmuşdur.

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ilə əlaqədar Qazax rayonunda davamlı surətdə yeni iş yerləri açılır. Birinci rübdə 9 yeni müəssisə yaradılmış, 123-ü daimi olmaqla 275 yeni iş yeri açılmışdır.

2018-ci ilin 3 ayı ərzində Qazax Məşğulluq Mərkəzinə 34 müəssisədən 766 boş iş yeri təqdim edilmiş, müraciət etmiş 822 nəfər vətəndaşlardan 777 nəfəri işaxtaran kimi qeydiyyata alınmış, 464 nəfərə işə göndəriş verilmiş, 447 nəfər münasib işlə təmin olunmuşdur.

Rayon ərazisində fəaliyyət göstərən 7 dövlət müəssisəsində 21 kvot iş yeri müəyyən edilmiş, 4 nəfər işlə təmin edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 07 aprel 2016-cı il tarixli "Əhalinin özünüməşğulluğunun təmin edilməsi" ilə bağlı sərəncamının icrası ilə əlaqədar olaraq Mərkəzə "Özünüməşğulluq" layihəsində iştirak etmək üçün müraciət etmiş işaxtaranların təsərrüfatlarına baxış keçirilməsinə başlanılmışdır.

Rayonda "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa, quruculuq işləri ötən ildə olduğu kimi, 2018-ci ilin birinci rübündə də davam etdirilmişdir.

Qazax şəhərində küçələrə 570 p/m uzunluğunda yeni bardür düzülmüş, 7.887 kvadratmetr əraziyə asfalt-beton, çınqıl örtüyü çəkilmişdir, bu istiqamətdə işlər davam edir.

Qızıl Hacılı kəndinin sakinləri üçün Nazirlər Kabinetinin 3 mart 2015-ci il tarixli 77s saylı Sərəncamı ilə 19,4 hektar torpaq sahəsinin təyinatı dəyişdirilmiş, 78 ailəyə fərdi yaşayış evlərinin bütün infrastrukturlarla birlikdə tikilməsi məqsədilə sənədləşmə işləri aparılır.

"Azəravtoyol" ASC tərəfindən Qazax-Uzuntala avtomobil yolundan ayrılan, ümumi uzunluğu 7 km olan Ermənistanla sərhəddə yerləşən Cəfərli strateji əhəmiyyətli avtomobil yolunun tikintisi işləri davam etdirilir. İkinci Şıxlı kəndində də yaxın vaxtlarda 4 km uzunluğunda yollara asfalt-beton örtüyünün çəkilməsi işlərinə başlanılacaq, həmçinin, 2018-ci ildə Daş Salahlı və Dəmirçilər kəndlərinin də avtomobil yollarının yenidən tikintisi nəzərdə tutulmuşdur.

Məzəm və Quşçu Ayrım kənd sakinlərinin rayon mərkəzinə təhlükəsiz gediş və gəlişini təmin etmək məqsədilə Qazax-Quşçu Ayrım avtomobil yolunun Alpout kəndi ilə Quşçu Ayrım kəndini birləşdirən hissəsində alternativ olaraq ikinci yolun çəkilişi işləri davam edir.

Şəhərdaxili yollarda 21 km, kənd yaşayış məntəqələrində isə 35 km uzunluğunda kənddaxili yollara qum-çınqıl döşənmiş, bu istiqamətdə işlər davam edir.

"Mətanət A" şirkəti tərəfindən Qazax rayonunun Daş Salahlı kəndində və "Carçıoğlu GROUP" MMC tərəfindən rayonun Xanlıqlar kəndində hər birinin illik gücü 50 min ton olan Əhəng Zavodunun tikintisi başa çatmış, yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

Həmçinin, "Carçıoğlu GROUP" MMC tərəfindən rayonun Xanlıqlar kəndində illik gücü 9.600 ton olan Elektrod Zavodunun tikintisi sürətlə davam edir.

"İnvestel GROUP" MMC tərəfindən İkinci Şıxlı kəndində "Aqropark" yaradılmış, 41 ədəd texnika alınmış, tutumu 2500 ton quru anbar və texnikaların təmiri və saxlanması üçün qaraj tikilmiş və tutumu 2600 ton olan soyuducu anbarın, sahəsi 300 kv.m olan iki mərtəbəli ofis binasının tikintisi davam edir. Xram çayı üzərində 3 pilləli nasos stansiyasının tikintisi başa çatmış, mühərriklər quraşdırılmışdır. 13,5 km uzunluğunda diametri 500 mm olan dəmir boru vasitəsilə su xətti çəkilmişdir. Sahələrdə tutumu 4500 kubmetr olan iki ədəd su hovuzu inşa edilmişdir. 850 hektar sahədə damcı üsulu və çiləmə sisteminin quraşdırılması üçün 18 km sahədaxili xətlər çəkilmiş, boru və qurğular alınmışdır. Həmçinin, "Aqrolizinq" ASC-dən Türkiyə respublikasının Karataş firmasına məxsus özü yığılan və daşınan, hər birinin uzunluğu 500 metr, qiyməti 89.100 manat olan 10 ədəd suvarma şlanqları alınmışdır. Ümumi suvarma işlərinin həyata keçirilməsi məqsədilə, quru və soyuducu anbarın işləməsi üçün 12,8 km uzunluğunda elektrik hava xətti çəkilmiş, 1 ədəd 1000 kv-luq, 2 ədəd 600 kv-luq və 1 ədəd 63 kv-luq transformatorlar quraşdırılmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş 14 fərdi yaşayış evlərindən 8-i istifadəyə verilmiş, 6 yaşayış evinin tikintisi başa çatmış, daha 7 yaşayış evinin tikintisi davam edir.

BDU-nun Qazax filialı üçün yeni bina kompleksinin tikintisi məqsədilə Ə.Şıxliniski küçəsi 18a ünvanında 6 hektar torpaq sahəsi ayrılmışdır. Tenderdə qalib elan edilmiş "Grandproje" MMC tərəfindən hazırlanmış BDU-nun Qazax filialının inzibati, tədris və tələbə yataqxanasının eskiz layihəsi Qazax rayon İcra Hakimiyyəti tərəfindən təsdiqlənərək Şəhərsalma və Tikinti Məcəlləsinin 75.5-ci maddəsinə uyğun olaraq ekspertizadan keçirilməsi üçün Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Təsisdənkənar Dövlət Ekspertiza Baş İdarəsinə göndərilmişdir. Yaxın vaxtlarda tikinti işlərinə başlanılacaqdır.

2018-ci ilin ilk 3 ayı ərzində rayon ərazisində aşkar edilmiş 2 ədəd top mərmisi Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi tərəfindən götürülərək zərərsizləşdirilməsi üçün Agentliyin minaların məhvetmə ərazisinə daşınmışdır.

2018-ci ilin birinci rübündə "Göyəzən" qəzetinin və qəzetin adını daşıyan GOYEZEN.AZ saytının fəaliyyəti qənaətbəxş olmuşdur. Saytda rayonumuzda aparılan abadlıq-quruculuq işləri, həyata keçirilən tədbirlər gündəlik operativ olaraq öz əksini tapmışdır. Bu gün saytın internet səhifəsinin 22 mindən çox izləyicisi vardır.

2018-cı ilin birinci rübü ərzində Qazax rayonunda kənd təsərrüfatı məhsullarının artırılması məqsədi ilə də bir sıra səmərəli işlər görülmüş və müsbət nəticələr əldə olunmuşdur.

2017-ci ildə qazılması nəzərdə tutulmuş 6 ədəd subartezian quyusunundan Alpout, Canalı, Hüseynbəyli və Birinci Şıxlı kəndlərinin hər birində 1 ədəd, Çaylı kəndində 2 ədəd subartezian quyusunun qazıntısı işləri yekunlaşmışdır. 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Çaylı və Orta Salahlı kəndlərində 2 ədəd, Aşağı Salahlı, Canalı, Hüseynbəyli, Kosalar, Dəmirçilər, Xanlıqlar və Qarapapaq kəndlərinin hər birində 1 ədəd olmaqla, cəmi 11 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulmuş və 4 subartezian quyusunun qazıntısına başlanılmışdır.

Qazax Suvarma Sistemləri İdarəsi rayonun 17.421 hektar kənd təsərrüfatına yararlı torpaq sahələrinin suvarılmasına xidmət edir. Qeyd olunan sahələrin suvarılması tutumu 120 milyon kubmetr olan Ağstafaçay su anbarı, tutumu 20 milyon kubmetr olan Coğazçay su anbarı, tutumu 2,6 milyon kubmetr olan İncəsu çay su anbarı, tutumu 0,2 milyon kubmetr olan Acı dərə kiçik su tutarında yığılan sular, öz başlanğıcını Gürcüstan Respublikasının ərazisində Xram çayından götürən Şıxlı arxı, həmçinin Xram və Kür çayları üzərində quraşdırılmış nasos stansiyaları vasitəsilə aparılır.

2018-ci il aprel ayının 1-nə Ağstafaçay su anbarında 53 milyon kubmetr, Coğazçay su anbarında 4,6 milyon kubmetr, İncəsu çay su anbarında 0,26 milyon kubmetr su olmuşdur. 2017-ci il aprel ayının 1-də isə bu göstəricilər müvafiq olaraq 55 milyon kubmetr, 4,8 milyon kubmetr və 0,3 milyon kubmetr olmuşdur. (15 aprelə - Ağstafaçay su anbarında 57 milyon kubmetr, Coğazçay su anbarında 8 milyon kubmetr və İncəsu çay su anbarında 0,38 milyon kubmetr).

2018-ci il suvarma işlərinə hazırlıq məqsədilə 261,19 km uzunluğunda arxlarda təmizləmə işləri nəzərdə tutulduğuna baxmayaraq, rayon İcra Hakimiyyətinin bilavasitə rəhbərliyi ilə rübün sonuna 264,72 km (122,35 km texnika vasitəsilə, 142,37 km isə əl əməyi ilə) uzunluğunda arx və kanallar kol-kosdan, lildən təmizlənərək vegetasiya suvarmasına tam hazır vəziyyətə gətirilmişdir. Bu istiqamətdə işlər davam etdirilir.

2018-ci ilin məhsulu üçün rayonda cəmi 12.349 hektar taxıl, 990 hektar kartof, 556 hektar qarğıdalı, 508,5 hektar tərəvəz, 7 hektar darı, 3.527 hektar yonca, 200 hektar noxud, 69 hektar günəbaxan, 60 hektar tütün, 38 hektar bostan bitkiləri və 87 hektar sorqo əkilməsi proqnozlaşdırılmışdır. Rübün sonuna 12.622,2 hektar taxıl səpilmişdir ki, bunun 270,5 hektarı 2018-ci ilin birinci rübündə aparılmışdır. Birinci rübdə 105 hektar kartof, 221 hektar yonca, 32 hektar vələmir, 44 hektar noxud, 30,6 hektar tərəvəz, 24 hektar süpürgə səpilmiş və səpin işləri davam etdirilir. Tütün əkini ilə bağlı 1.000 kv.m ştilliklər hazırlanaraq toxum səpilmişdir. 14 nəfər fiziki və 1 hüquqi şəxs tərəfindən tütün əkilməsi üçün 60 hektar sahədə şum aparılmışdır.

5.000 kq barama becərilməsi nəzərdə tutulmuş və hazırlıq işləri davam etdirilir. Rayonun Yuxarı Salahlı kəndində 1 hektar ərazidə tərəvəzlərin yetişdirilməsi məqsədilə yeni istixana kompleksinin tikintisi davam etdirilir.

Hesabat dövründə bitkiçilik sahəsində olduğu kimi, heyvandarlıq sahəsində də uğurlar əldə olunmuşdur. Süni yolla mayalandırılmış heyvanlardan 75 baş bala alınmış və həmin balalara görə subsidiyaların alınmasın üçün sənədlər Respublika Komissiyasına təqdim edilmişdir. 61 baş iribuynuzlu heyvanlarda süni mayalanma aparılmışdır. Rüb ərzində ət istehsalı 1.390 ton, süd istehsalı 7.600 ton, yumurta istehsalı 2.696.000 ədəd olmuşdur.

Qazax rayon Baytarlıq İdarəsi tərəfindən 2018-ci ilin birinci rübündə fərdi və fermer təsərrüfatlarında olan 31.406 baş iribuynuzlu və 1.153 baş təkdırnaqlılar qarayara, 31.634 baş iribuynuzlu heyvanlar dabax, 3.950 baş sahibli ev itləri quduzluq xəstəliyinə qarşı peyvənd edilmiş, 1.363 baş iribuynuzlularda vərəmə qarşı alleroji müayinə aparılmış, heç bir müsbət reaksiya qeydə alınmamışdır. Həmçinin, 109.570 baş körpə və 63.171 baş yetgin ev quşları taun xəstəliyinə qarşı peyvənd olunmuşlar.

2018-ci ilin 3 ayı ərzində rayon İcra Hakimiyyətinə 441 müraciət daxil olmuşdur ki, bunlardan 18-i minnətdarlıq və təşəkkür məktublarıdır. Müraciətlərdən 76-sı Prezidentin Administrasiyasına, 2-si Milli Məclisə, 4-ü Nazirlər Kabinetinə, 9-u respublikanın digər təşkilatlarına, 350-si isə bilavasitə İcra Hakimiyyətinə ünvanlanan müraciətlərdir.

Rayon İcra Hakimiyyəti başçısının aparatına daxil olan müraciətlərin təhlili göstərir ki, müraciətlərin 20,6 faizi mərkəzi orqanlardan, 79,4 faizi isə vətəndaşlar tərəfindən daxil olmuşdur. Keçən ilin müvafiq dövründə isə müraciətlərin 20,2 faizi mərkəzi orqanlardan, 79,8 faizi isə vətəndaşlar tərəfindən daxil olmuşdur. Daxil olan müraciətlərin 35,2 faizi müsbət həll olunmuş, 17,9 faizi qismən həll olunmuş, 0,7 faizi əsassız sayılmış, 36,7 faizinə müvafiq izahat verilmiş, 1,3 faizi baxılmaq üçün aidiyyəti orqanlara göndərilmiş, 8,2 faizi isə icradadır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə müsbət həll olunmuş müraciətlər 5,9 faiz artmışdır.

2017-cı ilin ilk 3 ayı ərzində Qazax RİH başçısının RİHB aparatında keçirdiyi qəbullar zamanı 504 nəfər, 2018-ci ilin ilk 3 ayı ərzində isə 412 nəfər vətəndaş müxtəlif məsələlər üzrə müraciət etmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə müraciət edənlər 92 nəfər azalmışdır. Müraciətlərdən 27-si torpaqla əlaqədar məsələlər, 23-ü mənzillə təmin olunmalarına, 16-sı evinin təmir olunmasına köməklik, 182-si işlə, 20-si ünvanlı sosial yardımla təmin olunmalarına köməklik, 5-i enerji, 4-ü təbii qaz, 4-ü içməli su məsələsi, 11-i görülmüş işlərin nəticəsi ilə əlaqədar minnətdarlıq və təşəkkürünü bildirmiş, 120-si isə digər məsələlərlə əlaqədar olmuşdur.

Həmçinin, İcra Başçısı tərəfindən vətəndaşların qəbulu üçün təsdiq olunmuş qrafikdən əlavə olaraq 176 nəfər vətəndaş fərdi qaydada qəbul edilmişdir.

2018-ci ilin 3 ayı ərzində Qazax RİH başçısı tərəfindən kəndlər və şəhərdə 10 səyyar görüş keçirilmişdir. Həmin görüşlərdə iştirak edənlərin sayı 2.631 nəfər, müraciət edənlərin sayı 105 nəfər olmaqla 52 təklif irəli sürülmüşdür. Qaldırılan problemlər və təkliflərdən 20-i icra edilmiş, 16 məsələ üzrə işlər davam edir, 16 təklif ilə əlaqədar isə aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

Bundan sonra da Dövlət Proqramının icra olunmasında hər birimiz daha məsuliyyətlə çalışmalı, verilən tapşırıqların layiqincə yerinə yetirilməsində fəal iştirak etməliyik. Bu yolda hər birinizə uğurlar arzulayıram.



## Xalq yazıçısı İsmayıl Şıxlının doğum günü qeyd olunmuşdur

**Azərbaycanın Xalq yazıçısı - İsmayıl Şıxlının doğum günü ilə əlaqədar ədibin heykəli önündə tədbir keçirilmişdir.**

Tədbirdə Milli Məclisin deputatı Kamran Nəbizadə, Yeni Azərbaycan Partiyası İcra Katibliyinin məsul işçisi Rafael Gülməmmədov, "Odlar Yurdu" Universitetinin rektoru Əhməd Vəliyev, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı, Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, IV İslam Həmrəyliyi Oyunlarının zorxana və pəhləvan güləşi üzrə gümüş mükafatçısı, zoraxana idman növü üzrə Avropa və Dünya çempionu, sərbəst güləş üzrə Əməkdar məşqçi, Beynəlxalq dərəcəli hakim Tural Əliyev, gənc rəssam Akif Əmirov, şair Zaməddin Ziyadoğlu, yazıçının yaxınları və ailə üzvləri iştirak etmişdir.

Tədbir iştirakçıları Xalq yazıçısının heykəli önünə gül-çiçək dəstələri qoymuş, əziz xatirəsini yad etmişlər.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq qonaqları və tədbir iştirakçılarını salamlamış, ən xoş arzularını çatdırmışdır. Qeyd etmişdir ki, İsmayıl Şıxlı bütün həyat və yaradıcılığını azərbaycançılığa həsr etmiş əvəzolunmaz şəxslərdən olmuşdur. O, həyatı boyu həm ədəbi, həm də ictimai-siyasi fəaliyyətində azərbaycançılıq mövqeyində duraraq, milli mentalitet, Vətənin azadlığı, müstəqillik duyğusu ilə yaşamışdır.

Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək Qazaxda şairlərə, yazıçılara rayon rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğıdan söz açmışdır. Keçirilən tədbirin həmin diqqət və qayğının ən bariz nümunəsi olduğunu qeyd edərək milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, milli mədəniyyətin, milli əxlaqın gənc nəslə çatdırılması baxımından ədibin əsərlərinin dəyəri barədə danışmışdır. Şair Mehman Nəbiyev İsmayıl Şıxlı yaradıcılığının gənc nəsillər üçün bir məktəb olmasını qeyd etmişdir.

Xalq yazıçısının oğlu Fərrux Şıxlı çıxış edərək atasının şəxsiyyətinə, yaradıcılığına verilən dəyərə və doğum gününün yüksək səviyyədə keçirilməsinə görə Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova ailəsi adından dərin minnətdarlığını bildirmişdir.

## Mehdi Hüseynin doğum günü

**Müasir Azərbaycan ədəbiyyatının formalaşmasında, ideya saflığı və bədii kamillik uğrunda mübarizələrində, bugünkü yüksək zirvələrə çatmasında görkəmli yazıçı, nəzəriyyəçi və tənqidçi Mehdi Hüseynin böyük rolu olmuşdur.**



Yurdumuza baharın qədəm qoyduğu bir vaxtda dünyaya gələn Mehdi Hüseynin rayonumuzda doğum günü qeyd olunmuşdur.

Bununla əlaqədar qüdrətli söz ustasının heykəli önündə keçirilən tədbirdə Milli Məclisin deputatı Kamran Nəbizadə, Yeni Azərbaycan Partiyası İcra Katibliyinin məsul işçisi Rafael Gülməmmədov, "Odlar Yurdu" Universitetinin rektoru Əhməd Vəliyev, "Qazax Xeyriyyə" İctimai Birliyinin sədri, professor İlham Pirməmmədov, Birliyin üzvü Sultanxanım Nəsibova, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı, Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, IV İslam Həmrəyliyi Oyunlarının Zorxana və pəhləvan güləşi üzrə gümüş mükafatçısı, zoraxana idman növü üzrə Avropa və Dünya çempionu, sərbəst güləş üzrə Əməkdar məşqçi, Beynəlxalq dərəcəli hakim Tural Əliyev, gənc rəssam Akif Əmirov, şair Zaməddin Ziyadoğlu iştirak etmişdir.

Tədbir iştirakçıları Xalq yazıçısının heykəli önünə gül-çiçək dəstələri qoyaraq ədibin əziz xatirəsini dərin hörmətlə yad etmişlər.

Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək M.Hüseynin həyat və fəaliyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Bildirmişdir ki, qüdrətli söz ustası Mehdi Hüseyn sözün əsl mənasında ədəbiyyat fədaisi idi. Bu, şöhrətli sənətkarın, alovlu publisistin, görkəmli dövlət xadiminin keçdiyi şərəfli həyat yolu, yaradıcılıq yolu ictimai varlığın bədii ifadəsi olan ədəbiyyatımızın böyük bir qolu və ayrılmaz hissəsidir. Bu gün də Mehdi Hüseyn ədəbiyyat tariximizdə mübariz bir tənqidçi kimi yaşayır.

Sonra tədbirdə çıxış edən "Qazax Xeyriyyə" İctimai Birliyinin sədri, professor İlham Pirməmmədov Mehdi Hüseynin Azərbaycan ədəbiyyatının inkişafındakı böyük xidmətlərindən söz açmışdır.

## Xalq şairi Səməd Vurğun yad edilmişdir



**Rayonumuzda dahi Xalq şairi Səməd Vurğunun anadan olmasının 112 illiyi qeyd olunmuşdur.**

Şairin şəhərin mərkəzində ucaldılmış heykəli önündə keçirilən tədbirdə Milli Məclisin deputatı Kamran Nəbizadə, Yeni Azərbaycan Partiyası İcra Katibliyinin məsul işçisi Rafael Gülməmmədov, "Odlar Yurdu"Universitetinin rektoru Əhməd Vəliyev, "Qazax Xeyriyyə" İctimai Birliyinin sədri, professor İlham Pirməmmədov, Birliyin üzvü Sultanxanım Nəsibova, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı, Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, IV İslam Həmrəyliyi Oyunlarının zorxana və pəhləvan güləşi üzrə gümüş mükafatçısı, zoraxana idman növü üzrə Avropa və Dünya çempionu, sərbəst güləş üzrə Əməkdar məşqçi, Beynəlxalq dərəcəli hakim Tural Əliyev, gənc rəssam Akif Əmirov, şair Zaməddin Ziyadoğlu iştirak etmişdir.

Tədbir iştirakçıları Səməd Vurğunun heykəli önünə gül-çiçək dəstələri qoyaraq böyük şairin əziz xatirəsini dərin ehtiramla yad etmişlər.

Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək dahi şairin həyat və yaradıcılığından danışmış, onun Azərbaycan ədəbiyyatındakı xidmətləri barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Bildirmişdir ki, o, baharda dünyaya göz açmışdı, özü də poeziyamızın baharı oldu. Aylar, illər, əsrlər ötəcək Səməd Vurğun yenə də indiki kimi seviləcək, onun sənət ardıcılları böyük ustadı xalqımızla birgə yad edəcəklər.

"Qazax Xeyriyyə" İctimai Birliyinin sədri, professor İlham Pirməmmədov Səməd Vurğun poeziyasından ətraflı danışaraq onun əsərlərinin gənc şairlər üçün bir örnək olduğunu qeyd etmişdir.

Sonra şairlərdən Zaməddin Ziyadoğlu S.Vurğun haqqında ürək sözlərini bildirmiş, Tamella Poladlı isə dahi şairə həsr etdiyi şeiri oxumuşdur.

**Nüşabə HÜSEYNOVA**

# Rayonumuzda Aprel şəhidlərinin ildönümləri qeyd olunmuşdur



### Əliyev Orxan Məhəmməd oğlu

2016-cı ilin Aprel döyüşləri öz qələbəsi, öz əks-sədası ilə Azərbaycan tarixinə düşdü. Çünki Aprel döyüşləri bizim ilk qalibiyyətimiz, ilk zəfər salnaməmizdir. O qanlı və şanlı döyüşlərdən düz 2 il ötür. Həmin döyüşlərdə qələbə qazanmaqla yanaşı, biz şəhidlər də verdik. Onlardan biri də qoşunların təmas xəttində erməni işğalçıları ilə döyüşlərdə şəhid olan həmyerlimiz Əliyev Orxan Məhəmməd oğludur. Şəhidlik zirvəsinə ucalıb adını tarixə yazdıran, ölümsüzlüyə qovuşan ölümündən 2 il bir vaxt keçir Orxanın. Bununla əlaqədar olaraq şəhidin doğulub boya-başa çatdığı Aslanbəyli kəndində ildönümü mərasimi keçirilmişdir.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov ildönümü mərasimində iştirak etmək üçün Aslanbəyli kəndinə gəlmişdir. Mərasimdə Milli Məclisin deputatı Kamran Nəbizadə, Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsinin rəisi, polkovnik Rəsul Quliyev, İcra Aparatının məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri, Qarabağ Müharibəsi Veteranları, şəhidin döyüş yoldaşları, ictimaiyyət və KİV nümayəndələri iştirak etmişdir.

Şəhidin məzarı ziyarət olunduqdan sonra ruhuna dualar oxunmuşdur. Mərasim iştirakçıları şəhidin məzarı üstünə tər qərənfillər qoyaraq əziz xatirəsini yad etmişlər.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov şəhidin məzarı önündə çıxış edərək Aprel döyüşlərində erməni işğalçılarının cəbhədə törətdiyi təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbiçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən danışmışdır. Qeyd etmişdir ki, Aprel döyüşləri bizim ilk qalibiyyətimiz, zəfər salnaməmizin ilk misralarıdır. Ordumuzun qüdrəti qarşısında vahiməyə düşən düşmən Azərbaycan əsgərinin gücünü bir daha gördü və anladı ki, xalqımız işğal olunmuş torpaqlarını heç zaman güzəştə getməyəcək və öz ərazi bütövlüyünü təmin edəcəkdir. Aprel döyüşləri dünya ictimaiyyətinə öz ordusu haqqında yalanlar, miflər uyduran Ermənistanın təbliğatını altüst etdi.

R.Babaşov çıxışı zamanı Ali Baş Komandan İlham Əliyevin əmri ilə döyüşə hər an hazır olan silahlı qüvvələrimizin ölkəmizin ərazi bütövlüyünü təmin edəcəyi günün çox da uzaqda olmadığını, qəhrəmanlarımızın qanının yerdə qalmayacağını bildirmişdir.

Milli Məclisin deputatı Kamran Nəbizadə, Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsinin rəisi, polkovnik Rəsul Quliyev, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək şəhidlərin göstərdiyi qəhrəmanlıqlardan, ordumuzun cəbhədəki uğurlarından söz açmış, Azərbaycan Ordusunun qüdrəti, gənclərimizin Vətən sevgisi, əsgərlərimizin döyüşlərdəki şücaəti, Silahlı Qüvvələrimizin gücü, xalq və ordu birliyindən danışmışlar. Qeyd etmişlər ki, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən bütün şəhidlərimiz kimi Orxan Əliyev də heç zaman unudulmayacaq, onun əziz xatirəsi daim qəlbimizdə yaşayacaqdır.

Şəhidin atası Məhəmməd Əliyev şəhidlərə və şəhid ailələrinə göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə ailəsi adından öz dərin minnətdarlığını bildirmişdir. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova təşəkkürünü çatdırmışdır.

Sonra şəhidin ata evində ehsan süfrəsi açılmışdır.

Qeyd edək ki, Əliyev Orxan Məhəmməd oğlu Prezident İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunmuşdur. Şəhərin mərkəzində şəhidin xatirəsini əbədiləşdirən bulaq-abidə kompleksi inşa edilmişdir.

### Baş leytenant Namazov Elvin Məmməd oğlu

Öz qələbəsi, əks-sədası ilə Azərbaycan tarixinə düşmüş 2016-cı ilin Aprel döyüşləri bizim ilk qalibiyyətimiz, ilk zəfər salnaməmizdir. Həmin döyüşlər zamanı torpaqlarımızın ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş baş leytenant Namazov Elvin Məmməd oğlunun şəhidlik adlı zirvəyə yüksəldiyi gündən 2 il ötür. Şəhidin doğulub boya-başa çatdığı Yuxarı Salahlı kəndində ildönümü mərasimi keçirilmişdir.

Mərasimdə Qazax Rayon İcra Hakimiyyəti Başçısı Aparatının məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri, Qarabağ Müharibəsi Veteranları, şəhidin döyüş yoldaşları, yaxınları, doğmaları, ictimaiyyət və KİV nümayəndələri iştirak etmişdir. Yüzlərlə insan Yuxarı Salahlı kənd qəbiristanlığında şəhidin məzarı başına toplaşmışdır.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Elvin Namazovun məzarı önünə gələrək tər gül dəstəsi qoymuş, şəhidin əziz xatirəsini dərin hörmətlə yad etmişlər.

Tədbir iştirakçıları da şəhidin məzarı üstünə tər qərənfillər düzərək xatirəsini yad etmişlər. Şəhidin ruhuna dua oxunduqdan sonra çıxışlar olmuşdur.



Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov şəhidin məzarı önündə çıxış edərək ailəsinə başsağlığı vermişdir. Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvələrinin Ali Baş Komandanı İlham Əliyevin diqqəti və qayğısı sayəsində qısa bir zamanda ordumuzun qazandıqları nailiyyətlərdən söz açmışdır. Qeyd etmişdir ki, Aprel döyüşləri bizi Qarabağda böyük qələbəmizə aparan şanlı yolun başlanğıcıdır. Bildirmişdir ki, Aprel döyüşləri zamanı öz torpaqlarını şərəflə qoruyan, öz canından keçən Elvin Namazov kimi igid oğullar sayəsində düşmən tapdağında olan Azərbaycan torpağının bir hissəsi azad edildi, strateji yüksəkliklər qoşunlarımızın əlinə keçdi. Aprel döyüşləri zamanı düşmən və bütün dünya Azərbaycan ordusunun gücünü bir daha gördü. Sübut etdik ki, bizim güclü ordumuz var və Azərbaycan əsgəri hücuma keçib öz torpaqlarını düşmən tapdağından azad edə bilər.

Rəcəb Babaşov çıxışı zamanı qeyd etmişdir ki, Prezident İlham Əliyevin sərəncamı ilə baş leytenant Elvin Namazov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur. Şəhərin mərkəzində şəhidin xatirəsini əbədiləşdirən bulaq-abidə kompleksi inşa edilmişdir.

Sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsinin rəisi, polkovnik Rəsul Quliyev, AYB Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal, Bakı Dövlət Universiteti Qazax filialının direktoru, professor Vüsət Əfəndiyev, Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatı Qadınlar Şurasının sədri Yeganə Göyüşlü çıxış edərək Aprel döyüşlərində erməni işğalçılarına Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbiçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən danışmışlar. Qeyd ermişlər ki, ordumuzun qüdrəti qarşısında vahiməyə düşən düşmən Azərbaycan əsgərinin gücünü bir daha gördü və anladı ki, xalqımız işğal olunmuş torpaqlarını heç zaman güzəştə getməyəcək və öz ərazi bütövlüyünü təmin edəcəkdir.

Çıxışlarda torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən bütün şəhidlərimiz kimi Elvin Namazovun da heç zaman unudulmayacağı qeyd olunmuşdur. Ali Baş Komandan İlham Əliyevin əmri ilə döyüşə hər an hazır olan silahlı qüvvələrimizin ölkəmizin ərazi bütövlüyünü təmin edəcəyi günün çox da uzaqda olmadığı, qəhrəmanlarımızın qanının yerdə qalmayacağı bildirilmişdir.

Mərasimdə Yuxarı Salahlı və Birinci Şıxlı kənd tam orta məktəblərinin şagirdləri Vətənə, şəhidlərə həsr olunan şeirlər söyləmişlər.

Şəhidin ata ocağında ehsan süfrəsi açılmışdır.

### Kapitan Orucov Mühüd Qurban oğlu

Ötən ilin Aprel döyüşləri zamanı ən uca zirvəyə - şəhidlik zirvəsinə ucalan kapitan Orucov Mühüd Qurban oğlunun son mənzilə yola salındığı gündən 2 il keçir. Bununla əlaqədar şəhidin doğulub boya-başa çatdığı Fərəhli kəndində ildönümü mərasimi keçirilmişdir.



Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Mühüd Orucovun Fərəhli kənd qəbiristanlığındakı məzarını ziyarət edərək şəhidin qəbri üstünə gül dəstəsi qoymuş, xatirəsini dərin ehtiramla yad etmişdir.

Mərasimdə iştirak edən aparatın məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri, Qarabağ Müharibəsi Veteranları, şəhidin döyüş yoldaşları, yaxınları, doğmaları, ictimaiyyət və KİV nümayəndələri, kənd sakinləri də şəhidin məzarı üstünə qərənfillər qoyaraq xatirəsini hörmətlə anmışlar.

Sonra şəhidin ruhuna dua oxunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov şəhidin məzarı önündə çıxış edərək ailəsinə başsağlığı vermişdir. Qeyd etmişdir ki, Aprel döyüşləri zamanı Mühüd Orucovun göstərdiyi igidliklər hər bir azərbaycanlı üçün nümunədir. Məhz belə oğullar sayəsində Aprel döyüşləri zamanı işğal altında olan Azərbaycan torpaqlarının bir hissəsi düşmən tapdağından azad edilmiş, strateji yüksəkliklər qoşunlarımızın əlinə keçmişdir. Bildirmişdir ki, Azərbaycan ordusu Aprel döyüşləri zamanı düşmənə sarsıdıcı zərbələr vuraraq öz gücünü göstərdi. Sübut etdi ki, bizim güclü ordumuz var və Azərbaycan əsgəri istənilən an qələbə qazana bilər.

Rəcəb Babaşov çıxışı zamanı qeyd etmişdir ki, Prezident İlham Əliyevin sərəncamı ilə kapitan Mühüd Orucov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif olunmuşdur. Şəhərin mərkəzində şəhidin xatirəsini əbədiləşdirən bulaq-abidə kompleksi inşa edilmişdir.

Sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsinin rəisi, polkovnik Rəsul Quliyev, Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatı Qadınlar Şurasının sədri Yeganə Göyüşlü, Silahlı Qüvvələrin "Ehtiyatda olan Zabitlər Konfederasiyası" Qazax rayon şöbəsinin sədri Baxış Hüseynov, Mühüd Orucovun döyüş yoldaşları çıxış edərək Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin döyüş zamanı göstərdiyi qəhrəmanlıqlardan, əsgərlərimizin cəbhədə əldə etdikləri uğurlardan söz açmışlar. Qeyd etmişlər ki, Vətəni uğrunda canlarından keçən bütün şəhidlərimiz kimi Mühüd Orucovun da əziz xatirəsi hər zaman yad ediləcək və o, daim qəlblərdə yaşayacaqdır.

Fərəhli kənd tam orta məktəbin şagirdləri Vətənə, şəhidlərə həsr olunan şeirlər söyləmişlər.

Mərasimdən sonra şəhidin ata evində ehsan süfrəsi açılmışdır.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov mərasimdən sonra kəndin giriş hissəsində Mühüd Orucovun xatirəsinə inşa edilmiş bulağa baxmış, onun daha da abadlaşdırılması və yaşıllaşdırılması üçün müvafiq tapşırıqlar vermişdir.

**Elçin İSMAYIL**

## Xalq şairi Məmməd Arazın poeziya günü keçirilmişdir

**Xalq şairi Məmməd Arazın xatirəsinə həsr edilən poeziya günləri Qazax rayonundan start götürmüşdür. Tədbir Azərbaycan Yazıçılar Birliyinin (AYB), Respublika Bilik Cəmiyyətinin təşkilatçılığı və Qazax Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilmişdir.**





Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoymuş, əziz xatirəsini dərin ehtiramla yad etmişlər.

Sonra Gənclər Mərkəzində davam edən tədbir Xalq şairinin öz ifasında səslənən şeirin oxunması ilə başlamışdır.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq Xalq şairi Məmməd Arazın Azərbaycan ədəbiyyatında çoxcəhətli və zəngin ədəbi irsinə, sənətkarlıq qüdrətinə görə özünəməxsus yeri və mövqeyi olan görkəmli söz ustadı olmasından danışmışdır. İcra Başçısı bildirmişdir ki, Xalq şairi Məmməd Araz hələ sağlığında ulu öndər Heydər Əliyevin qayğısı ilə Azərbaycanın Əməkdar mədəniyyət işçisi, Əməkdar incəsənət xadimi, Xalq şairi adlarına layiq görülmüş, dövlət mükafatı almış, "İstiqlal" ordeni ilə təltif edilmişdi.

Aparıcı, AYB Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal Məmməd Araz yaradıcılığının və şeirlərinin Azərbaycan ədəbiyyatındakı rolundan söz açmışdır.

Poeziya günlərinin ideya müəllifi, AYB-nin üzvü Qardaşxan Əzizxanlı çıxış edərək qeyd etmişdir ki, üçüncü dəfə təşkil olunan Məmməd Araz poeziya günlərinə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Azərbaycan Yazıçılar Birliyi dəstək verir. Layihə rəhbəri bildirmişdir ki, rayonun Daş Salahlı, Orta Salahlı, Aşağı Salahlı, Sarıvəlli, Birinci Şıxlı, İkinci Şıxlı, Kommuna, Çaylı, Qazaxbəyli kənd, həmçinin şəhər orta məktəblərinin şagirdləri arasında onun şeirlərinin ən yaxşı ifaçısını müəyyənləşdirməkdən ötrü müsabiqə keçirilmişdir.

AYB Qazax zona filialının aparıcı məsləhətçisi, şair Mustafa Rasimoğlu şair və yazıçılara göstərdiyi diqqət və qayğıya görə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova öz dərin minnətdarlığını bildirmişdir.

Tədbirdə Əməkdar artistlərdən Nuriyyə Hüseynova və İlkin Əhmədov, aşıqlardan Camoy Qurbanov və Yaşar Gülümcanov şairin şeirlərinə həsr olunmuş mahnılar oxumuşlar.

Sonra söz poeziya günlərinin tərkibinə daxil olan "Məmməd Araz poeziya müsabiqəsi"nin iştirakçılarına verilmişdir. Müsabiqənin qalibi və iştirakçısı olmuş məktəblilər Xalq şairinin bir-birindən zəngin olan şeirlərini oxumuş, öz bacarıqlarını nümayiş etdirmişlər.

Tədbirin sonunda Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Qardaşxan Əzizxanlı Bilik Fondu tərəfindən təsis edilmiş Diplomları və hədiyyələri müsabiqə qaliblərinə təqdim etmişlər.

**Elçin İSMAYIL**

# Hüquqi dövlət quruculuğunda Heydər Əliyev irsi

***Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, dahi Azərbaycanlı, ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi günlərində müasir tariximizin parlaq və silinməz səhifələrini təşkil edən Vətən, xalq qarşısında misilsiz xidmətləri bütün dünya azərbaycanlılarının yüksək ehtiramı ilə ölkəmizin hər yerində və onun hüdudlarından kənarda geniş qeyd olunur. Tarixə öz möhürünü vurmuş liderlər sırasında Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin xüsusi xidmətləri vardır. Əminliklə deyə bilərik ki, Heydər Əliyevin nəcib mənəvi keyfiyyətlərindən biri də məhz onun siyasi fəaliyyətinin bütün mərhələlərində sosial ədalət, düzgünlük, xeyirxahlıq, insanpərvərlik və humanizm prinsiplərinə tapınması, qanunçuluğun, hüquq qaydalarının ictimai həyatda möhkəmlənməsinə çalışması olmuşdur. Cəmiyyətin yeniləşməsi Heydər Əliyevin həyata keçirdiyi iqtisadi, siyasi və sosial islahatların məntiqi nəticəsi kimi qavranılır və tarixi həqiqətə çevrilir.***

Ulu öndərin 1993-cü ilin iyununda xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə gəlişi zamanı ölkədə dərin hakimiyyət böhranı mövcud olmuş, ictimai-siyasi sabitlik pozulmuş, xaos və anarxiya, hərcmərclik mühiti formalaşmış, vətəndaş qarşıdurması dərinləşmişdi. Xalqımızı və dövlətimizi böyük təhlükələrdən xilas etmək, müstəqil Azərbaycan dövlətini qurmaq missiyasına "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" söyləməklə başlayan Heydər Əliyev nadir və iti dövlətçilik zəkası, cəsarəti və sarsılmaz iradəsi ilə Azərbaycanda keçmiş sovetlər birliyindən miras qalmış rejim əvəzinə demokratik hüquqi dövlət yaratmağa müvəffəq oldu.

Ümummilli liderimizin gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində 1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanda cinayətkarlıq və hüquq pozuntularına qarşı barışmaz müharibə elan edilməklə, bütün hüquq-mühafizə orqanlarının fəaliyyəti cinayətkar təzahürlərə, ilk növbədə mütəşəkkil cinayətkarlığa, korrupsiya və terrorizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə səfərbər edildi.

Dahi rəhbər Heydər Əliyevin "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" 9 avqust 1994-cü il tarixli Fərmanı ilə cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirildi, hüquq mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirildi. Fərmanda cəmiyyətdə banditizm, quldurluq, rüşvətxorluq, korrupsiya kimi cinayətlərin geniş yayılmasının xüsusi narahatlıq doğurduğu vurğulanmış, bu kimi neqativ təzahürlərlə mübarizə mexanizmləri öz əksini tapmışdır. Qısa müddət ərzində görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə hakimiyyət böhranı aradan qaldırıldı, vətəndaş müharibəsi və qardaş qırğınının qarşısı alındı, müxtəlif bölgələrdə olan çoxsaylı qanunsuz silahlı birləşmələr, quldur dəstələri, dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər zərərsizləşdirildi, ictimai-siyasi sabitlik bərpa edildi.

Heydər Əliyevin bütün idarəçilik boyu rəhbər tutduğu ali prinsiplərin hamısı gərəkli olub. "Ədaləti ədalətsizliklə bərpa etmək olmaz" deyən ulu öndərimiz çıxışlarında bu məsələlərə tam aydınlıq gətirmişdi. Nəcib və xeyirxah əməllər sahibi olan Heydər Əliyev çıxışlarında daim bu fikri xüsusi vurğulayırdı: "Dövlət iki şeydən sarsıla bilər: cinayətkar cəzasız qalanda və günahsız cəzalandırılanda". Təkcə bu sətirlər onun insan hüquq və azadlıqlarına necə böyük qayğı və hörmətlə yanaşdığını göstərir. Heydər Əliyev fundamental insan azadlıqlarının təminatına maksimum səviyyədə şərait yaratmağın vacibliyini özünün müdrik çıxışlarında daim qeyd edirdi.

Azərbaycan dövlətinin qurucusu və memarı olan Heydər Əliyev siyasi hakimiyyəti dövründə çox bacarıqlı islahatçı kimi tanınıb. Ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkədə hüquq islahatlarının və dövlət quruculuğunun əsasları üçün zəmin rolunu oynadı. "Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik" - deyən ulu öndər Heydər Əliyev konstitusiyaçı alim kimi bu sahədə bütün problemləri öyrənərək və görkəmli filosofların elmi irsinə mükəmməl yiyələnərək Azərbaycan Respublikasının ilk milli Konstitusiyasını yaratdı.

Bütün dünyada humanist insan kimi tanınan Heydər Əliyevin qətiyyəti sayəsində 1993-cü ildə ölüm hökmünə moratorium qoyulub. Ən başlıcası isə 1998-ci ildə Şərqdə ilk dəfə olaraq bu cəza tamamilə ləğv olunub. Heç şübhəsiz ki, yüksək insanpərvərlik prinsiplərindən irəli gələn bu humanist addım həm də ölkəmizin Avropa Şurasına qəbul olunmasına real zəmin yaratmışdı. Öz siyasətində daim humanizmə, insanpərvərliyə geniş yer verən ümummilli lider Heydər Əliyev daim insan faktorunu önə çəkir, onun hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunub qorunmasını ən vacib məsələ hesab edirdi. O, ümumbəşəri dəyərlərə sədaqət və yüksək insanpərvərlik nümayiş etdirərək, 1995-2003-cü illərdə imzaladığı fərmanlarla minlərlə məhkum əfv edilmiş, onun təşəbbüsü ilə qəbul edilən 8 amnistiya aktı 31584 şəxsə şamil olunmuşdur.

Qeyd edildiyi kimi, görkəmli dövlət xadimi Heydər Əliyevin xalqımız qarşısında çox böyük təmənnasız xidmətləri vardır. Bu əvəzsiz xidmətlərdən biri də hüquq-mühafizə orqanlarının müstəqilliyinin təmin edilməsidir. Ölkəmizdə həyata keçirilən hüquq islahatlarının qayəsi də bundan ibarətdir. Bu vacib vəzifəni həyata keçirmək məqsədilə dövlət başçımız 21 fevral 1996-cı il tarixdə Hüquq İslahat Komissiyasının tərəfindən hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında","Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və sair qanunların qəbulu məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi sahəsində önəmli yer tutur. Bütün bu qanunlar insan hüquq və azadlıqlarının təmini istiqamətində bir növ başlanğıc idi. Yeri gəlmişkən, hüquq islahatlarından danışarkən, prokurorluq sistemində aparılan fundamental islahatların rolunu da xüsusi qeyd etmək lazımdır. Məlumdur ki, cəmiyyətin inkişafı, hüquqi münasibətlərə keçid prokurorluğun funksiyalarına və statusuna da yenidən baxılmasını zəruri etmişdi.

Odur ki, ulu öndər Heydər Əliyev çox düzgün olaraq prokurorluq sistemində genişmiqyaslı islahatların aparılması təşəbbüsünü irəli sürmüşdü. Eyni zamanda onun rəhbərliyi altında prokurorluqda aparılan islahatların sayəsində bu orqanın səlahiyyətləri beynəlxalq standartlara uyğun qurulmağa və bundan sonra qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, kadrların peşəkarlıq səviyyəsinin artırılması istiqamətində çox böyük işlər görülməyə başlandı. Ən başlıcası isə bu məqsədlərin uğurla həyata keçirilməsi yönümündə "Prokurorluq haqqında" qanunun qəbulunu xüsusi vurğulamaq lazımdır.

Ulu öndərin hüququ dövlət quruculuğu istiqamətində fəaliyyəti heç də deyilənlərlə məhdudlaşmır. Azərbaycan Respublikasının İnsan Haqları üzrə Müvəkkili (Ombudsman) təsisatının formalaşdırılması, 2002-ci ilin 24 avqustunda keçirilmiş ümumxalq referendumu nəticəsində Konstitusiyaya mütərəqqi dəyişikliklərin edilməsi, Konstitusiya Məhkəməsinə birbaşa müraciət imkanının yaradılması da bu sırada öncül yer tutur. Bundan başqa ölkə vətəndaşları Avropa İnsan Hüquqları Məhkəməsinə birbaşa müraciət etmək imkanı qazanıblar.

Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində respublikamızda vətəndaşların azad, sərbəst yaşaması, hüquq və azadlıqlarının maksimum səviyyədə müdafiə edilməsi üçün bütün zəruri addımlar atılmışdır. Bu gün isə ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu sahəsindəki fəaliyyətini inamla davam etdirən, müasir dünyanın ən çevik və cəsarətli dövlət rəhbərlərindən biri İlham Əliyev hüquq mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsini və müasirləşdirilməsini daim vacib məsələlərdən biri kimi nəzərdən keçirir. 11 aprel 2018-ci il prezident seçkilərində Azərbaycan xalqı bir daha ulu öndərin siyasətinə, onu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevə, bir sözlə sosial-iqtisadi inkişafa, əmin-amanlığa, firavan yaşayışa səs verdi. Əminik ki, ölkə prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar nəticəsində Azərbaycanda ədalət prinsipi öz səmərəliliyini daha da artıracaq, insan hüquq və azadlıqlarının təminatı ilə bağlı bütün məsələlər uğurlu həllini tapacaqdır.

**Əlirza BABAYEV,**
**Qazax rayon prokuroru,**
**baş ədliyyə müşaviri**



# Ulu öndər Heydər Əliyevə həsr olunmuş foto-sərgi keçirilmişdir

**Rayonumuzda ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş foto-sərgi keçirilmişdir. Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Rəsm Qalereyasında keçirilən sərgidə iştirak etmişdir.**

Tədbir iştirakçıları əvvəlcə Qazax rayonunun təbiət mənzərələrinin, tarixi abidələrinin, sərhəd kəndlərinin, mədəni həyatının, qorxmaz insanlarının əks olunduğu foto-sərgiyə baxmışlar.

Sonra Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək sərgi iştirakçılarını salamlamış, ulu öndərin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş tədbirin əhəmiyyətindən danışmışdır. Bildirmişdir ki, Azərbaycanda musiqinin, teatrın, kino sənətinin, heykəltəraşlıq və rəssamlığın, xalça sənətinin inkişafı ulu öndərin adı ilə bağlıdır. Heydər Əliyevin başladığı işlər bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Layihə rəhbəri, gənc rəssam Akif Əmirov bildirmişdir ki, sərgidə Bakıdan gəlmiş sərbəst fotoqraflar Rütsəm Hüseynovun, Vaqif Muğalovun, Pərvanə Mustafayevanın, Səfiyar Məcnunun, Süleyman Süleymanlının, Elnur Muxtarovun və Sultanə Əhmədlinin çəkdikləri fotolar nümayiş olunur. Layihənin keçirilməsində əsas məqsəd ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün daha böyük anlamda davam etdirilən gənc rəssam və fotoqraflara göstərilən diqqət və qayğını əks etdirməkdir.

Fotoqraflardan Səfiyar Məcnun və Pərvanə Mustafayeva, Təhsil Şöbəsinin müdiri Nizaməddin Babanlı, Ağstafa Regional Mədəniyyət İdarəsinin Qazax rayonu üzrə nümayəndəsi Valeh Vəliyev çıxış edərək rayonda foto-sərgi üçün çəkiliş apardıqları zaman onlara göstərdiyi diqqət və qayğıya görə Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova iştirakçılar adından öz dərin minnətdarlıqlarını bildirmişlər.

**Elçin İSMAYIL**

# Qazaxlı gənclər Heydər Əliyev Mərkəzində nikaha daxil olmuşlar

**Qazax rayonundakı Heydər Əliyev Mərkəzində yeni qurulan gənc ailənin nikah mərasimi keçirilmişdir.**



Cütlüklərin toy mərasimi ümummilli lider Heydər Əliyevin doğum günü ərəfəsinə təsadüf etdiyindən gənclər ulu öndərin adını daşıyan mərkəzdə nikaha daxil olmuşlar.

Mərasim Babayev Sabir Əzim oğlu və Göşşüyeva Aytac İbadət qızından ibarət cütlüklərin arzusu əsasında reallaşmışdır.

Gənclər əvvəlcə ulu öndər Heydər Əliyevin əziz xatirəsini anmış və abidəsi önünə gül dəstələri qoymuşlar.

Sonra cütlüklər öz ailə üzvləri və doğmaları ilə birlikdə Heydər Əliyev Mərkəzinə gəlmişlər. Orada nikah mərasimi təşkil olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məmməd Alıyev nikah mərasimində çıxış edərək rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun adından yeni ailə quran gəncləri səmimi qəlbdən təbrik etmiş, valideynlərinə gözaydınlığı vermişdir. Ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ərəfəsində belə bir mərasimin təşkil olunmasını yüksək qiymətləndirərək gənclərə ailə xoşbəxtliyi, firəvanlıq və xoş günlər arzulamışdır.

RİHB Aparatında aparıcı məsləhətçi Kəmalə Cəfərova və Qazax rayon Qeydiyyat şöbəsinin rəisi Məsumə Səmədova çıxış edərək nikah mərasimləri keçirilən hər iki gəncə ailə səadəti arzulamış, bu gözəl gün münasibətilə valideynlərini təbrik etmişlər.

Sonda gənclər tərəfindən imzalar atıldıqdan sonra hər iki gəncin ailə nikahları rəsmi qeydə alınmışdır.

**Xuraman ƏZİMOVA**



# "Qazağım mənim" adlı rəsm sərgisi

**Qazax Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Qazağım mənim" adlı rəsm sərgisi keçirilmişdir. Qazax Dövlət Rəsm Qalereyasında keçirilən sərgidə Qazax Rayon İcra Hakimiyyətinin məsul işçiləri, Azərbaycan Dövlət Rəsm Qalereyasının, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının, Mədəniyyət və İncəsənət Universitetinin, Xətai Sənət Mərkəzinin, Azərbaycan Rəssamlar İttifaqının nümayəndələri, rəssamlar, idarə, müəssisə və təşkilat rəhbərləri, rayonda fəaliyyət göstərən ali təhsil müəssisələrin müəllim və tələbələri, təhsil, mədəniyyət işçiləri, rayonda fəaliyyət göstərən KİV nümayəndələri iştirak etmişdir.**

Tədbir iştirakçıları əvvəlcə rayon məktəblilərinin, Qazax Dövlət Rəsm Qalereyasının və Qazax Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvlərinin rəsm əsərləri və əl işlərindən ibarət sərgi ilə tanış olmuşlar. Sərgidə 70 rəsm əsəri və 15 əl işi nümayiş olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək qonaqları salamlamış, sərgidə rəsm əsərləri və əl işləri nümayiş olunan gənc və yeniyetmələrə daha böyük uğurlar qazanmağı arzu etmişdir. Qeyd etmişdir ki, bu gün respublikamızda bütün sahələr kimi, mədəniyyət sahəsinə də diqqət və qayğı göstərilir. Mədəniyyətimizin bir qolu olan rəssamlıq sahəsinə də xüsusi qayğı ilə yanaşılır. Gənclərin, xüsusilə də məktəblilərin rəssamlıq sənətinə marağını artırmaq, bu sahədə istedadlarını inkişaf etdirmək üçün hərtərəfli dəstəklə əhatə olunurlar. Mədəniyyəti xalqın böyük sərvəti hesab edən ümummilli lider Heydər Əliyevin başladığı işlərin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirmişdir.

Layihə rəhbəri, gənc rəssam Akif Əmirov çıxış edərək keçirilən sərginin məqsəd və əhəmiyyətindən danışmışdır. Qeyd etmişdir ki, bu layihənin təşkil olunmasında əsas məqsəd gənc və yeniyetmələrdə olan istedadı aşkar etmək, onlarda rəssamlıq və boyakarlıq sənətinə olan marağı artırmaqdır. Sərginin yüksək səviyyədə təşkil olunmasına, onlara göstərilən diqqət və qayğıya görə Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova qonaqlar və sərgi iştirakçıları adından dərin minnətdarlığını bildirmişdir.

Sonra tədbirdə iştirak edən qonaqlardan Mədəniyyət Nazirliyinin Təsviri və Dekorativ Sənəd sektorunun müdiri Qalib Qasımov, Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Mədəniyyət və İncəsənət Universitetinin müəllimi Milena Nəbiyeva, Azərbaycan Rəssamlar İttifaqının üzvü, rəssam Qafar Sarıvəlli, Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Ramiz Quliyev, idarənin Qazax rayonu üzrə nümayəndəsi Valeh Vəliyev, rayon Təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı çıxış edərək bu cür tədbirlərin keçirilməsini yüksək qiymətləndirmiş, sərginin yüksək səviyyədə təşkil olunduğunu qeyd etmişlər.

Tədbirin sonunda sərgidə rəsm əsərləri və əl işləri nümayiş olunan məktəblilərə təşkilatçılar tərəfindən Diplom təqdim edilmişdir. Qazax Dövlət Rəsm Qalereyasının işçiləri isə Təşəkkürnamə ilə təltif olunmuşlar.

**Elçin İSMAYIL**

# Ulu öndərə həsr edilmiş ədəbi-bədii kompozisiya nümayiş olunmuşdur

***Böyük şəxsiyyət, Azərbaycan xalqının taleyində və tarixində misilsiz xidmətləri olan ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü respublikamızın hər yerində olduğu kimi, Qazax rayonunda da yüksək səviyyədə qeyd olunmuşdur.***



Rayonun bütün idarə, müəssisə və təşkilatlarında, təhsil, səhiyyə, mədəniyyət ocaqlarında ümummilli liderə həsr olunmuş silsilə tədbirlər keçirilmişdir. Dahi şəxsiyyətin Azərbaycan dövləti və xalqı naminə göstərdiyi misilsiz xidmətlərindən söz açılmışdır. İstər keçirilən bütün tədbirlərdə, istər xatirəsinə həsr olunmuş konfranslarda, yarış və sərgilərdə Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən, azərbaycançılıq ideologiyasından bəhs edilmişdir.

Qazax Dövlət Dram Teatrında ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Türkün alın yazısı" poeması əsasında hazırlanmış eyni adlı ədəbi-bədii kompozisiya nümayiş olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov rayon Mədəniyyət Mərkəzinə gəlmiş, mərkəzin foyesində ulu öndərə həsr olunmuş kitab sərgisinə baxmış, ümummilli liderə həsr olunmuş kitablarla tanış olmuşdur.

Sonra ədəbi-bədii kompozisiya nümayiş olunmuşdur. Şair-publisist Aydın Murovdağlının qələmə aldığı əsərdə ümummilli liderin həyat və fəaliyyətinə, keçdiyi şərəfli mübarizə yoluna bir daha nəzər salınmışdır.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək ulu öndərin titanik həyat və fəaliyyətindən danışmışdır. Ümummilli liderə həsr olunmuş kompozisiyanı yüksək qiymətləndirərək əsərin müəllifinə və aktyorlara minnətdarlıq etmişdir.

Kompozisiya başa çatdıqdan sonra şair-publisist Aydın Murovdağlı çıxış edərək kompozisiyanın hazırlanmasına göstərdiyi diqqət və qayğıya görə Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova öz dərin minnətdarlığını bildirmiş, Dram Teatrının yaradıcı kollektivinə təşəkkür etmişdir.

# 10 may günü doğulmuş körpələrə hədiyyələr verilmişdir

**Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov fəaliyyətə başladığı ilk gündən rayon sakinlərinə diqqət və qayğı göstərir. Uşaqdan tutmuş böyüyə kimi hər bir rayon sakini ilə maraqlanaraq əlindən gələn köməkliyi əsirgəmir.**





Ulu öndər Heydər Əliyevin doğum günü rayonun Birinci Şıxlı və Yuxarı Salahlı kəndlərində yeni körpələr dünyaya gəlmişdir. Rayon rəhbərliyi xalqımız üçün əziz olan həmin gündə uşaq doğulmuş ailələrə öz diqqət və qayğısını əsirgəməyib.

RİHB Aparatının baş məsləhətçisi Teybə Hüseynova, böyük məsləhətçisi Gülnar Quluyeva, məsləhətçisi Səba Paşayeva və sektor müdiri-baş mühasib Qurban Babayev həmin ailələrin qonağı olmuşlar.

Birinci Şıxlı kəndində uşaqlarına İlham adını qoymuş valideynlər - Xanbaba Abdullayev və həyat yoldaşı Vəfa xanımın sevinclərinin həddi-hüdudu yoxdur.

Yuxarı Salahlı kənd sakinləri Nizami Cəfərov və Kamilə Cəfərova isə 10 may günü doğulmuş körpələrinə Xanım adını qoymuşlar.

Hər iki ailəyə uşaq arabası, paltar dəsti və şirniyyat hədiyyə edilmişdir. Gənc ailələr onlara göstərilən diqqət və qayğıya görə rayon rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# “Məqsədimiz xalqa xidmət göstərməkdir”





**Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun Aşağı Salahlı, Ağköynək, Kosalar, Aslanbəyli, Kəmərli, Daş Salahlı, Xanlıqlar, Cəfərli və Abbasbəyli kəndlərində keçirdiyi səyyar-görüşlərdə bu fikir səslənmişdir**

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov fəaliyyətə başladığı ilk gündən mütəmadi olaraq kəndlərdə səyyar-görüşlər keçirir, sakinlərin müraciətlərini dinləyir, qaldırılan hər bir məsələyə diqqət və qayğı ilə yanaşır. Rayon rəhbərinin istər şəhər, istərsə də kənd sakinləri ilə görüşü artıq bir ənənə şəklini almışdır. Həmin ənənə bu il də davam etdirilmişdir.





Rəcəb Babaşov növbəti səyyar-görüşlərini rayonun sərhəd kəndlərindən Cəfərli, Abbasbəyli, eləcə də Aşağı Salahlı, Xanlıqlar, Ağköynək, Kosalar, Aslanbəyli, Kəmərli və Daş Salahlı kəndlərində keçirmişdir. Keçirilən səyyar-görüşlərdə kənd sakinləri rayon rəhbərliyini böyük səmiyyət və hörmətlə qarşılamışlar.

Keçirilən görüşlərdə kənd sakinləri ilə yanaşı aidiyyatı idarə, müəssisə və təşkilatların rəhbərləri, KİV nümayəndələri də iştirak etmişdir.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov səyyar-görüşlərdə çıxış edərək kənd sakinlərini salamlamış, keçirilən görüşün məqsəd və əhəmiyyətindən danışmışdır. İcra Başçısı rayonda aparılan tikinti-quruculuq işlərindən, kənd təsərrüfatında əldə edilən uğurlardan, işsizliyin aradan qaldırılması üçün həyata keçirilən işlərdən söz açmışdır. Bildirmişdir ki, məqsədimiz cənab Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrini layiqincə yerinə yetirmək, vətəndaşlara bütün sahələrdə diqqət və qayğı göstərməkdir.

Rayonumuzda görülən işlərdən danışan İcra Başçısı Rəcəb Babaşov qeyd etmişdir ki, ötən il tikinti-quruculuq ili kimi yadda qaldı. Rayonun Kosalar, Xanlıqlar, Daş Salahlı, Cəfərli kəndlərində, eləcə də şəhərin özündə uşaq bağçalarının tikilməsi və əsaslı şəkildə təmir olunması, Hüseynbəyli, Çaylı və Kommuna kəndlərinə çəkilmiş avtomobil yolları, “Azərxalça” ASC tərəfindən tikilərək istifadəyə verilən xalça müəssisəsi bunun ən bariz nümunəsidir. “Mətanət A” şirkəti tərəfindən inşa edilmiş Əhəng zavodu istifadəyə tam hazırdır. Hazırda isə rayonumuzda tikintisi davam etdirilən, 100 nəfərə yaxın rayon sakininin işlə təmin olunacağı Elektrod Zavodunda, “İnvestel GROUP” MMC tərəfindən İkinci Şıxlı kəndində tikilən kənd təsərrüfatı müəssisəsində, 145 çarpayılıq rayon Mərkəzi Xəstəxanasında, eləcə də digər sosialyönümlü obyektlərdə işlər sürətlə davam etdirilir.

Ötən ilin noyabrında “Ordumuz-qürurumuz, xalqımız-dayağımız” devizi altında keçirilən hərbi vətənpərvərlik tədbirindən söz açan rayon rəhbərliyi bildirmişdir ki, ilk dəfə olaraq respublikamızda keçirilən tədbirin əsas məqsədi Qazaxın Milli Qəhrəmanlarını, şəhidlərini bütün dünyaya tanıtmaq, ən əsası da gənc nəsilin vətənpərvər ruhda böyüməsini təmin etmək, ordu ilə xalqın birliyini nümayiş etdirmək idi.

Tikinti-quruculuq işlərindən danışan Rəcəb Babaşov kənd təsərrüfatı sahəsində qazanılan uğurlardan da söz açmışdır. Ötən il bu sahədə də uğurlu göstəricilərin əldə edildiyini qeyd edərək bu il Qazax rayonunun tarixində ilk dəfə olaraq əkin sahələrinin 21 min hektara çatdırıldığını bildirmişdir.

İcra Başçısı rayonumuzda şəhidlərə, onların ailələrinə, Qarabağ müharibəsi əlillərinə və veteranlarına diqqət və qayğı göstərildiyini bildirərək bu sahədə diqqətəlayiq işlər görüldüyünü qeyd etmişdir. Rayonumuzda yaradılan Şəhidlər Xiyabanının bunun ən bariz nümunəsi olduğunu bildirmişdir.

Səyyar-görüşlərdə çıxış edən kənd sakinləri rayonda, eləcə də bütün kəndlərdə görülən işlərə görə Respublika Prezidenti İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirmiş, rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova sonsuz təşəkkürlərini çatdırmışlar.

**Elçin İSMAYIL**



## Əməkdar məşqçi Ramiz Tağıyevin 70 illik yubileyi qeyd olunmuşdur

**Qazaxda SSRİ idman ustası, SSRİ bədən tərbiyə əlaçısı, Respublika dərəcəli hakim, Azərbaycanın fəxri bədən işçisi, Ali kateqoriyalı məşqçi-müəllim, Əməkdar məşqçi, Fəxri idman xadimi Ramiz Tağıyevin anadan olmasının 70 illiyi qeyd olunmuşdur. Bu münasibətlə Qazax Rayon İcra Hakimiyyətində yubiley tədbiri keçirilmişdir.**

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq yubilyarı səmimi qəlbdən təbrik etmiş, ona ən xoş arzularını bildirmişdir. Qeyd etmişdir ki, hər bir xalqın dünya miqyasında tanınmasında idmançılarının əməyi danılmazdır. Tarix boyu adlı-sanlı idmançılar yetirmiş Qazax rayonu adını ölkəmizin idman tarixinə yazmış idmançıları ilə fəxr edir. Qazaxda güləşdən söz düşərkən ilk ağıla gələn Ramiz Tağıyevin güləş məktəbi olur. O, Ramiz müəllim ki, onun güləş məktəbindən neçə-neçə adlı-sanlı idmançılar bu gün üçrəngli bayrağımızı yüksəklərə qaldırır. Ramiz Tağıyev tanınmış idmançılar yetirməmişdən öncə şanlı bir idmançı kimi tanınmış, dəfələrlə yüksək miqyaslı yarışlarda öz qalib sözünü demişdir. O, Avropa və Dünya çempionları, 100-ə yaxın idman ustası, 500-dən çox ustalığa namizəd yetişdirmişdir. O, milli güləş və respublika birinciiyində 9 dəfə respublika çempionu olmuşdur.

Sonra Rəcəb Babaşov yubilyarı Fəxri Fərmanla təltif etmiş, qiymətli hədiyyə ilə mükafatlandırmışdır.

Sonra Ramiz Tağıyev çıxış edərək onun əməyinə verilən yüksək qiymətlərə görə Prezident İlham Əliyevə öz dərin minnətdarlığını bildirmiş, Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova ona göstərdiyi diqqət və qayğıya görə sonsuz təşəkkürlərini çatdırmışdır.

Əməkdar bədən tərbiyəsi və idman xadimi, Prezident təqaüdçüsü Kamal Əhmədov, Əməkdar jurnalist Sərhəd Məmmədov, Əməkdar müəllim Bəsti Ələkbərova, yazıçı-jurnalist Səbinə Yusif, Əlbəyaxa Döyüş Federasiyasının rəhbəri Azər Əhmədov, BDU-nun Qazax filialında pedaqoji fakültənin dekanı Hamlet İlyaslı, Əməkdar məşqçi Azər Əliyev, rayon Təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, Gənclər və İdman İdarəsinin rəisi Vüqar Nəbiyev çıxış edərək yubilyarı təbrik etmiş, onun keçdiyi şərəfli ömür yolundan söz açmış, xatirələrini söyləmişlər.

Görüşdə Səbinə Yusifin Ramiz Tağıyev haqqında yazdığı “40-cı fənd” kitabı İcra Başçısına təqdim olunmuşdur.

**Elçin İSMAYIL**



## Sərhəd kəndinə su çəkilmişdir

**Respublikamızda əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir və bu proses davam etməkdədir. Bu istiqamətdə Qazax rayonunda da xeyli işlər görülmüşdür.**

Qazax rayonunun sərhəd kəndi olan Kəmərli kəndində içməli su xəttinin açılışı olmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açılış mərasimində çıxış edərək Respublika Prezidenti İlham Əliyevin “Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” 17 mart 2017-ci il tarixli Sərəncamına əsasən “Azərsu” ASC tərəfindən yeni su xəttinin çəkilməsindən danışmış, bu münasibətlə bütün kənd sakinlərini səmimi qəlbdən təbrik edərək ən xoş arzularını bildirmişdir.

İcra Başçısı əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsindən danışaraq bu istiqamətdə Qazaxda da təqdirəlayiq işlərin görüldüyünü qeyd etmişdir. Bildirmişdir ki, son 2 il ərzində rayonumuzun Qazaxbəyli, Ürkməzli, Aslanbəyli, Ağköynək, Qarapapaq, Xanlıqlar, Alpout, Kəmərli, Orta Salahlı, Quşçu Ayrım, Bala Cəfərli kəndlərinə içməli su çəkilmişdir. Rəcəb Babaşov Qazax rayonuna göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova öz dərin minnətdarlığını bildirmişdir.

“Azərsu” ASC-nin sədr müavini Köçərli Həsənov tədbirdə çıxış edərək Ölkə Başçısının müvafiq Sərəncamına əsasən çəkilmiş yeni su xəttinin kənd sakinlərinin içməli suya olan tələbatını tam ödəyəcəyini qeyd etmişdir. Cəmiyyət tərəfindən 1950 p/m uzunluğunda çəkilmiş su xəttinin su çərşənbəsi ərəfəsində Kəmərli kəndinin sakinlərinə Novruz hədiyyəsi olduğunu bildirmişdir.

Kənd sakinlərindən Rəhim Rəhimov, Minarə Rəhimova və başqaları çıxış edərək su çəkilməsinə görə Ölkə Başçısı İlham Əliyevə bütün kənd sakinləri adından öz dərin minnətdarlıqlarını bildirmişlər.

Açılış mərasimində “Azərsu” ASC-də Birləşmiş Su-Kanal MMC-nin direktoru Ramin Sadıqov da iştirak etmişdir.

## İcra Başçısı şuşalı ailəni qəbul etmişdir

**Şuşa şəhərinin ermənilər tərəfindən işğalından 26 il keçir. Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov bununla əlaqədar Qazaxbəyli kəndində məcburi köçkünlər üçün salınmış yeni qəsəbədə məskunlaşmış Veysiyevlər ailəsini qəbul etmişdir.**



Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Kəbirə Veysiyeva, oğlu Cəlil Veysiyev və qızı Fatma Cəlilova ilə səmimi görüşdükdən sonra Şuşa şəhəri, onun qədim abidələri, maddi-mədəni sərvətləri barədə danışmışdır. Qeyd etmişdir ki, erməni işğalı nəticəsində Şuşaya olduqca böyük miqdarda maddi və mənəvi ziyan dəymişdir. Görüşdə qeyd olunmuşdur ki, şuşalılar respublikanın 59 rayonunda, 700 yaşayış məntəqəsində məskunlaşmışlar.

Kəbirə Veysiyeva Şuşanın işğalından, ermənilərin törətdiyi vəhşiliklərdən söz açaraq işğal zamanı çəkdikləri əzab və məşəqqətlərdən danışmışır. Bildirmişdir ki, biz elə o vaxtdan Qazax rayonuna pənah gətirmişik. Sağ olsun rayon sakinlərini, bizə öz doğmaları kimi isti münasibət göstərmiş, elə ilk gündən qayğımıza qalmışlar. K.Veysiyeva rayon rəhbərliyi tərəfindən onlara diqqət və qayğı göstərildiyini qeyd etmişdir. Bu görüşün göstərilən qayğının əyani sübutu olduğunu söyləmişdir. Ona görə də rayon rəhbərliyinə, eləcə də rayon sakinlərinə ailəsi adından öz dərin minnətdarlığını bildirmişdir.

Görüşdə iştirak edən Cəlil Veysiyev və Fatma Cəlilova da dövlət tərəfindən hər cür diqqət və qayğı ilə təmin olunduqlarını qeyd etmişlər.

Görüşdə şuşalıların gələcəyə inam və ümidlə baxdığı vurğulanmışdır. Qeyd edilmişdir ki, onlar Qarabağ münaqişəsinin həllinə dair danışıqlarda Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyini dəstəkləyir və onun əmri ilə silaha sarılıb işğalçıya qarşı döyüşə girməyə hazırdırlar. Görüşdə Şuşanın işğaldan azad olunacağı günün uzaqda olmadığı da qeyd olunmuşdur.

## Qazaxda 60 hektar sahəyə tütün əkilir



***Qazax rayonunda tütünün gəlirli olduğu nəzərə alınaraq bu il əkin sahələri daha da genişləndirilmişdir. Bu məqsədlə bu il 60 hektarda ştil əkilməsi nəzərdə tutulmuşdur. Əkin aparılacaq sahələrdə aqrotexniki tədbirlər vaxtlı-vaxtında başa çatdırılmış və ayrılmış torpaq şumlanaraq əkin üçün hazırlanmışdır.***

Sahələrə əkiləcək ştillər rayonun özündə yetişdirilmişdir. Bu məqsədlə Cəfərli kəndində 1000 kv.metr sahədə hazırlanmış istixanalarda kifayət qədər ştil yetişdirilərək sahələrə daşınmışdır.

Artıq rayonda tütün əkininə başlanılmışdır. Əkin aparılması üçün kifayət qədər işçi qüvvəsi ayrılmışdır. Ştillər sahələrə köçürülən kimi suçular tərəfindən suvarılır.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tütün əkininin gedişatı ilə tanış olmaq üçün tez-tez kəndlərdə olur, əkinin gedişi ilə maraqlanır.

Rayonda ştil əkini başa çatmaq üzrədir.

## Qazaxda baramaçılıq inkişaf edir

**Prezident İlham Əliyev Azərbaycan üçün ən vacib kənd təsərrüfatı sahələrinin yaxın illərdə inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayarkən baramaçılığın da strateji məhsul kimi inkişafının vacibliyini diqqətə çatdırmış, iqtisadi baxımdan gəlirli olan, minlərlə insanın iş yerinə çevriləcək baramaçılıq sektorunun böyük əhəmiyyətini qeyd etmişdir.**

Qarşıya qoyulan bu mühüm vəzifə Qazax rayonunda uğurla həyata keçirilir. Kənd təsərrüfatının bütün sahələri kimi baramaçılıq da ildən-ilə inkişaf edir.

Artıq üçüncü ildir ki, rayonda barama yetişdirilir. Qısa vaxt ərzində çəkdikləri zəhmətin bəhrəsini görən rayon sakinləri bu sahəyə də maraq göstərir, baramaçılığın sirlərini öyrənir, daha çox qazanc əldə etməyə çalışırlar. Sahə ilə bağlı dövlətin və eləcə də rayon rəhbərliyinin dəstəyini hiss edən kümçülər barama istehsalını artırır, ailələrinin dolanışığını təmin edirlər.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov rayonda baramaçılığın vəziyyətini öyrənmək üçün mütəmadi olaraq barama yetişdirilən kəndlərə gedərək mövcud vəziyyətlə yerində tanış olur.

Bu il rayon üzrə kümçülərə bu il 130 qutu baramaqurdu verilmişdir. Əvvəlcədən lazım gələn bütün hazırlıq işləri görülmüş, yüksək məhsuldarlıq əldə etmək üçün münbit şərait yaradılmışdır. Bu il kümçülər 5 ton məhsul təhvil verməyi qarşılarına məqsəd qoymuşlar. Zəhmət adamları qarşıya qoyduqları nəticəni əldə edəcəklərinə tam əmindirlər.

## Xalçaçıların peşə bayramı qeyd olunmuşdur

**Qazax rayonunda bütün sahələrlə yanaşı, xalçaçılığın inkişaflna da diqqət və qayğı göstərilir. Şəhərin mərkəzində “Azərxalça” ASC tərəfindən tikilib istifadəyə verilmiş və ilk gündən səmərəli fəaliyyət göstərən Xalça müəssisəsi buna əyani sübutdur.**

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Xalça müəssisəsinə gəlmişdir.

Müəssisənin direktoru Nazim İbrahimov fəaliyyətləri barədə məlumat verərək bildirmişdir ki, müəssisə istifadəyə verildikdən dərhal sonra xalça toxunulmasına başlanılmışdır. Qeyd etmişdir ki, artıq fabrikdə 80-dən çox xalçaçı çalışır. Qısa müddət ərzində xalçaçılar uğurlar qazanmışlar. “Xalçaçı günü” münasibətilə müəssisədə çalışan Rahilə Əsgərova, Fatma Ləzgiyeva və Xalidə Yolçuyeva “Azərxalça” ASC-nin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Müəssisəyə daxil olan zaman burada çalışan xalçaçı qızlar, qadınlar rayon rəhbərliyini alqışlarla, böyük səmimiyyətlə qarşılamışlar.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış



edərək bütün xalçaçıları peşə bayramları münasibətilə səmimi qəlbdən təbrik etmiş, ən xoş arzularını bildirmişdir. İcra Başçısı rayonumuzda görülən işlər barədə danışaraq qeyd etmişdir ki, Qazaxda bütün işlər Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq həyata keçirilir və son 2 ildə Qazaxda genişmiqyaslı tikinti-quruculuq işləri görülmüşdür. Yeni iş yerlərinin açılması, əhalinin işlə təmin olunması istiqamətində də əhəmiyyətli dərəcədə işlər həyata keçirilmişdir. Xalça fabrikinin tikilməsi və işə salınması, sizlərin işlə təmin olunması buna əyani sübutdur.

Sonra rayon rəhbərliyi adından peşə bayramı münasibətilə bütün xalçaçılara gül-çiçək dəstələri hədiyyə olunmuşdur.

Toxucu Rahilə Əsgərova xalçaçılar adından çıxış edərək yeni müəssisədə onların işləmələri üçün hər cür şərait yaradıldığını qeyd etmişdir. Qazaxda belə bir istehsalat müəssisəsinin yaradılmasına görə Prezident İlham Əliyevə bütün xalçaçılar adından öz dərin minnətdarlığını bildirmişdir.

Sonra toxunması başa çatdırılmış, ölçüsü 25 kv.m olan böyük bir xalçanın təqdimatı olmuşdur. Bu münasibətlə alqış sədaları altında qırmızı lent və iplər kəsilmişdir.

**Elçin İSMAYIL**

### İTMİŞDİR

Bakı Dövlət Universiteti Qazax filialının IV kurs tələbəsi Məmmədova Turan Nofəl qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Kosayev Murad İstan oğlunun adına verilmiş veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ağstafa rayon Dağ Kəsəmən kəndində yaşayan Əliyev Vüsal Alı oğlunun adına verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor) 5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ:1200 SİFARİŞ: 1489

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib.
Foto: Fəqan MƏHƏRRƏMOV